# Yerli səviyyədə idarəetmə və ictimai xidmət qurumlarının fəaliyyətində şəffaflıq və informasiya açıqlığının monitorinqi üzrə

# B Ə L Ə D Ç İ

(*yerli vətəndaş cəmiyyəti və media üçün*)

**BAKI - 2020**

*Bu Bələdçi Regional Əməkdaşlıq üçün Qara Dəniz Təşkilatı (Black Sea Trust for Regional Cooperation) ilə fiziki şəxs-sahibkar Azər Mehtiyev arasındakı 20 iyul 2019-cu il tarixli 03/19 saylı xidmət müqaviləsinin tələbləri əsasında İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin ekspertləri tərəfindən hazırlanıb. Bələdçi yerli səviyyədə dövlət idarəetmə qurumlarının, ictimai və kommunal xidmətləri göstərən şirkətlərin və bələdiyyələrin fəaliyyətində şəffaflıq və informasiya açıqlığının monitorinqi aparmaq istəyən yerli vətəndaş cəmiyyəti və media quurmları və nümayəndələri üçün nəzərdə tutulub.*

*Bələdçinin məzmununa görə Regional Əməkdaşlıq üçün Qara Dəniz Təşkilatı heç bir məsuliyyət daşımır.*

**Bələdçini hazırlayan ekspert qrupu: Azər Mehtiyev**
**Rövşən Ağayev**
**Samir Əliyev**

**Annotasiya**

Bələdçidə məlumat azadlığının təminatı olan və ictimai informasiyaların açıqlanması ilə bağlı tələbləri müəyyən edən qanunvericilik barədə detallı məlumatlar, yerli səviyyədə ictimai informasiyanın açıqlanması durumunun monitorinqinin aparılması üçün istifadə edilə biləcək indikatorlar və monitorinq modulu təqdim edilib. Bələdçi yerli səviyyədə ictimai informasiyalarla işləyən və ictimai informasiyaların açıqlanması durumunun monitorinqini həyata keçirən vətəndaş cəmiyyəti üçün nəzərdə tutulub. Bununla yanaşı bu bələdçi ictimai informasiyanın açıqlanması məsələləri ilə maraqlanan yaxud bu sahədə fəaliyyət göstərən bütün vətəndaş cəmiyyəti və ekspertlər üçün faydalı ola bilər.

# Ön söz

Biz informasiya əsrində yaşayırıq: bütün səviyyələrdə ictimai idarəetmənin səmərəli təşkili mərkəzi və yerli hakimiyyət, habelə yerli özünüidarə qurumlarının şəffaflığını, hesabatlılığını və informasiya açıqlığını tələb edir. İnformasiya açıqlığı insanlara imkan verir ki, həm mərkəzi, həm regional, həm də yerli səviyyədə baş verən hadisələr barədə doğru-düzgün məlumatları olsun, onları doğru anlasın və özlərinin fərdi yaxud qrup maraqlarını ictimai maraqlarla uzlaşdıra bilsinlər.

Təsadüfi deyil ki, məlumat azadlığı insanların konstitusiya ilə təsbit olunmuş əsas hüquq və azadlıqlarından biridir. Bu azadlığın təmin edilməsi üçün ölkədə çox sayda qanunlar və başqa hüquqi-normativ aktlar qəbul olunub. Həmin qanunvericilik və normativ sənədlərinin tələblərinə müvafiq qurumların və şirkətlərin nə dərəcədə əməl edərək informasiyaları vaxtlı-vaxtında açıqlayıb-açıqlamamalrına vətəndaş cəmiyyətinin nəzarəti çox önəmlidir. Bununla yanaşı vətəndaş cəmiyyəti və müstəqil ekspertlər həm də zəruri ictimai məlumatların əldə edilməsi, toplanması, emal olunması və anlaşılan şəkildə müxtəlif maraq qruplarına çatdırılmasında böyük rola malikdirlər. Mərkəzi icra hakimiyyəti qurumlarının və digər dövlət orqanlarının, ictimai əhəmiyyətli iri dövlət şirkətlərinin qanunla tələb olunan ictimai informasiyaları açıqlamalarına vətəndaş cəmiyyətinin nəzarətini təşkil etmək üçün imkanlar yerli səviyyədə bu işləri təşkil etməklə müqayisədə daha genişdir. Çünki Bakı-Sumqayıt zonasında həm fəaliyyət göstərən vətəndaş cəmiyyətləri institutları, həm də bu sahə üzrə bilik və bacarıqlara malik mütəxəssis və ekspertlər daha çoxdur.

Amma regionlarda, rayonlarda və kəndlərdə vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi çox aşağı, vətəndaş cəmiyyəti qurumarının sayı çox məhdud, ictimai informasiyanın toplanması və emalı işini bacaran ekspertlər isə çox azdır. Buna görə də bu bələdçinin hazırlanmasında məqsəd məhz yerli səviyyədə fəaliyyət göstərən vətəndaş cəmiyyətləri qurumlarına ictimai informasiyanın açıqlanması tələbləri barədə bilikləri çatdırmaq, habelə müvafiq ictimai informasiyaların vaxtlı-vaxtında v tələblərə uyğun açıqlamasının monitorinqinin aparılması metodologiyasının və müvafiq modulun təqdim edilməsidir.

Bələdçidə əvvəlcə məlumat azadlığının təminatının ümumi əsaslarını təşkil edən qanunvericilik, açıqlanması qadağan olunan informaiyaların dairəsi təqdim edilir, sonra ictimai informasiyaların açıqlanması tələbləri, üsulları və mexanizmlərini əks etdirən qanunlar və digər hüquqi-normativ sənədlər barədə məlumat verilir, həmin sənədlərdə müxtəlif xarakterli ictimai informasiyaların açıqlanması ilə bağlı tələblər, həmin məlumatların açıqlanması üsulları, müddətləri və mexanzimləri izah olunur. Bələdçidə Açıqlanması məcburi olan ictimai informasiyaların siyahısı, informasiya sahibləri və onların informasiyaları açıqlama üsulları ilə bağlı detallı bilgilər yer alıb. Daha sonra yerli icra hakimiyyətləri, bələdiyyələr və dövlət şirkətləri tərəfindən ictimai informasiyanın açıqlanması vəzifələri ilə bağlı qanunvericiliyin tələbləri təqdim edilib.

Bələdçinin ikinci hissəsində isə yerlərdə müxtəlif ictimai qurumlar tərəfindən öz sahələrinə aid ictimai informasiyanın açıqlanması durumunun monitorinqinin aparılması zamanı vətəndaş cəmiyyətinin istifadə edə biləcəyi indikatorlar verilib.

Nəhayət, bələdçinin son hissəsində qeyd olunan indikatorlardan istifadə edərək monitorinqin necə təşkil edilməsi ilə bağlı bələdçinin müəllifləri tərəfindən hazırlanmış monitorinq modulu təqdim edilib.

Bu bələdçi yerli səviyyədə ictimai informasiyalarla işləyən və ictimai informasiyaların açıqlanması durumunun monitorinqini həyata keçirmək istəyən vətəndaş cəmiyyəti üçün nəzərdə tutulub.

# 1. Regional və yerli səviyyədə ictimai informasiyaların açıqlanmasının huquqi-normativ əsasları

Regional və yerli səviyyədə ictimai informasiyanın sahibi sayılan dövlət orqanlaırnın, hökumət təşkilatlarının, ictimai xidmətlər göstərən dövlət şirkətlərinin və yerli özünüidarəetmə qurumlarının (bələdiyyələrin) sahib olduqları ictimai informasiyaları qanunvericiliyin tələblərinə uyğun və vaxtlı-vaxtında açıqlamasının monitorinqini aparmaq üçün, ilk növbədə, müvafiq hüquqi-normativ tələbləri bilmək zəruridir.

Ölkəmizdə ictimai informasiyanın açıqlanmasına, mərkəzi və yerli dövlət qurumlarının, yerli idarəetmə qurumlarının, ictimai (kommunal) xidmətlər göstərən dövlət şirkətlərinin və bələdiyyələrin fəaliyyətində şəffaflıq və hesabatlılığı təmin edilməsinə qarşı tələbləri müəyyən edən hüquqi-normativ sənədlər aşağıdakılardır:

- Azərbaycan Respublikasının Konstitusiyası;
- Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu;
- İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu;
- Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanunu;
- Kommersiya sirri haqqında Azərbaycan Respublikasının Qanunu;
- İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu;
- Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu;
- Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu;
- Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu;
- Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu;
- Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu;
- Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunu;
- Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası. (Azərbaycan Respublikası Prezidentinin 16 fevral 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilib);
- Yerli icra hakimiyyətləri haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli fərmanı ilə təsdiq edilib);
- "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 sentyabr 2016-cı il tarixli 338 saylı Qərarı;
- Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 16 fevral 2007-ci il tarixli 33 saylı Qərarı ilə təsdiq edilib);
- Büdcə təşkilatlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin, büdcədənkənar dövlət fondlarının, səhmlərinin (paylarının) 30 faizi və ya daha artıq hissəsi dövlətə məxsus olan təsərrüfat cəmiyyətlərinin illik maliyyə fəaliyyəti haqqında məlumatlarının, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyanın internet informasiya ehtiyatlarında açıqlanması Qaydası (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 noyabr 2018-ci il tarixli 504 saylı Qərarı ilə təsdiq edilib).

İctimai informasiyanın açıqlığı ilə bağlı sadalanan bu qanunvericilik və hüquqi-normativ sənədləri şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1) ictimai informasiyanın açıqlanmasına ümumi əsaslarını müəyyən edən ümumi xarakterli qanunlar;
2) açıqlanması məhdudlaşdırılan informasiyaları müəyyən edən qanunvericilik sənədləri;
3) açıqlanmalı ictimai informasiyaların siyahısını, ictimai informasiya sahiblərini və belə informasiyaların açıqlanması formalarını və müddətlərini müəyyən edən qanunlar və hüquqi-normativ sənədlər;
4) yerli icra hakimiyyəti sisteminə daxil olan qurumlardan ictimai informasiyanın açıqlanmasını tələb edən hüquqi-normativ sənədlər;
5) ictimai xidmətlər göstərən dövlət şirkətlərinin şəffaflıq, hesabatlılıq və informasiya açıqlığına qarşı tələbləri müəyyən edən hüquqi-normativ sənədlər;
6) bələdiyyələrdən ictimai informasiyanın açıqlanmasını tələb edən hüquqi-normativ sənədlər.

Sivil cəmiyyət və media təmsilçiləri açıqlanmalı və açıqlanması qadağan olunan (yəni dövlət sirri və kommersiya sirri hesab olunan) informasiyaları fərqləndirməyi bacarmalı, habelə hansı dövlət və ictimai qurumların açıqlanmalı ictimai informasiyanın sahibi olmasını, onların bu informasiyaları necə və hansı müddətlərdə açıqlamalı olduqlarını, açıqlanmalı ictimai informasiyaları başqa hansı üsullarla əldə etməyin mümkün yollarını bilməlidirlər.

## 1.1) İctimai informasiyanın açıqlanmasının ümumi əsasları

**Azərbaycan Respublikasının Konstitusiyası**

Bütün sahələrdə olduğu kimi məlumat azadlığı və ictimai informasiyanın əldə edilməsi ilə bağlı məsələlərə prinsipial yanaşmanı müəyyən edən baza sənədi Azərbaycan Respublikasının Konstitusiyasıdır. Məlumat azadlığı Konstitusiyamızda təsbit olunmuş əsas insan hüquq və azadlıqlarından biri hesab olunur. Konstitusiyanın[1] "*Məlumat azadlığı*" adlı 50-ci maddəsinin 1-ci bəndinə əsasən:

- ✓ hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

**Məlumat azadlığı haqqında Azərbaycan Respublikası Qanunu**

Konstitusiyada təsbit olumuş bu məlumat azadlığının təmin edilməsinin əsas prinsipləri və təminatları, habelə məlumatın əldə edilməsinin ümumi əsasları "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda[2] (19 iyun 1998-ci il, № 505-IQ) əksini tapıb.

Qanunun 5-ci maddəsinə ***məlumat azadlığının həyata keçirilməsinin əsas prinsipləri*** aşağıdakılardır:

- məlumat azadlığının təmin edilməsi;
- məlumatın açıqlığı və onun mübadilə edilməsinin azadlığı;
- məlumatın obyektivliyi, tamlığı və həqiqiliyi;
- məlumatın axtarılmasının, əldə edilməsinin, istifadə olunmasının, yayılmasının və qorunmasının qanuniliyi;
- hər kəsin şəxsi və ailə həyatının sirrinin saxlanması;

[1] http://www.e-qanun.az/framework/897
[2] http://www.e-qanun.az/framework/3420

- şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması.

Qanunun 6-cı maddəsinə əsasən, ***məlumatın əldə edilməsi aşağıdakı yollarla təmin edilir***:

- dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri və qəbul olunmuş qərarları barədə məlumatlar vermələri yolu ilə;
- dövlət hakimiyyəti orqanlarında məlumatın əldə edilməsi üçün informasiya xidmətlərinin yaradılması ilə;
- statistik məlumatlardan, kitabxanaların, arxivlərin və muzeylərin fondlarından, habelə informasiya sistemlərindən maneəsiz istifadə edilməsi ilə;
- vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə yaradan fövqəladə hallar, təbii fəlakətlər və qəzalar barədə əhaliyə dərhal məlumat verilməsi ilə;
- dövlətin təhlükəsizliyinə xətər yaradan fövqəladə hallar barədə əhaliyə dərhal məlumat verilməsi ilə;
- kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasına yol verilməməsi ilə;
- normativ-hüquqi aktların qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin nəzərinə çatdırılması ilə.

Qanunun 9-cu maddəsində ***açıq məlumatın əldə edilməsi yolları*** göstərilib:

- internet informasiya ehtiyatları vasitəsilə;
- rəsmi nəşrlərlə;
- kütləvi informasiya vasitələrinin yayılması ilə;
- kitabxanalar, ictimai informasiya mərkəzləri, kütləvi istifadənin mümkün olduğu digər yerlərdə sənədlərlə tanış olmaq üçün şərait yaradılması yolu ilə;
- fiziki və hüquqi şəxslərə təqdim edilməsi ilə;
- qanunvericiliklə nəzərdə tutulan başqa üsullarla.

## 1.2) Açıqlanması məhdudlaşdırılan informasiyalar

Açıqlanması məhdudlaşdırılan informasiyaların ümumi çərçivəsi "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsində müəyyən edilib. Həmin maddəyə əsasən, ***alınması məhdudlaşdırılan məlumatlara*** - dövlət, peşə (vəkil, notariat, həkim), qulluq, bank, kommersiya, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına, terror aktlarına aid olan məlumatlar aiddirlər. Ətraf mühitə dair informasiya müvafiq qanunvericiliklə müəyyən edilmiş hallarda alınması məhdudlaşdırılan məlumata aid edilir.

**Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanunu**[3] (7 sentyabr 2004-cü il, № 733-IIQ)

Qanuna əsasən ***dövlət sirri*** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır.

Qanunun 5-ci maddəsində dövlət sirri təşkil edən məlumatların siyahısı təqdim edilib. Belə məlumatlar siyahısına 4 qrup məlumatlar aid edilib:

---

[3] http://www.e-qanun.az/framework/5526

- Hərbi sahədə dövlət sirri hesab olunan məlumatlar;
- İqtisadi sahədə dövlət sirri təşkil edən məlumatlar;
- Xarici siyasət sahəsində dövlət sirri təşkil edən məlumatlar;
- Kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində dövlət sirri təşkil edən məlumatlar.

Qanuna əsasən iqtisadi sahədə dövlət sirri təşkil edən məlumatların siyahısına hərbi, müdafiə, mülki müdafiə və dövlət təhlükəsizliyi sahələri ilə bağlı bir sıra iqtisadi məsələlərlə yanaşı, həm də aşağıdakılar aiddir:

- ✓ dövlətin təhlükəsizliyinə təsir edən mühüm müdafiə və ya iqtisadi əhəmiyyəti olan elmi və texniki nailiyyətlər, elmi tədqiqat, təcrübi-konstruktor, layihə işləri və texnologiyaları haqqında;
- ✓ siyahısı qanunvericiliklə müəyyənləşdirilən strateji növlü faydalı qazıntıların ehtiyatlarının, istehsalının, idxalı və ixracının, satışının həcmi, dövlət ehtiyatlan haqqında, pul əskinaslarının, qiymətli kağızların hazırlanması, saxtalaşdırmadan qorunması, həmçinin dövlətin maliyyə fəaliyyətinin digər xüsusi tədbirləri haqqında.

**Kommersiya sirri haqqında Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasında kommersiya sirri ilə əlaqədar yaranan münasibətlər Kommersiya sirri haqqında Azərbaycan Respublikasının Qanunu[4] (4 dekabr 2001-ci il, № 224-IIQ) ilə tənzimlənir. Qanuna əsasən, ***kommersiya sirri*** - hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar hesab olunur.

Qanunun 3-cü maddəsinə əsasən, məlumatların ***kommersiya sirrinə aid edilməsinin meyarları*** aşağıdakılardır:

- ➢ kommersiya dəyərinə malik olması (başqa şəxslərə məlum olmadığına görə fəaliyyət sahəsində üstünlük qazanmaq və mənfəət əldə etmək baxımından əhəmiyyətlidir, digər şəxslərə bütövlükdə, yaxud hissələrlə satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə bilər və s.);
- ➢ məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi;
- ➢ bu məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla məhdudlaşdırılması.

Qanunun 4-cü maddəsi kommersiya sirri hesab edilən məlumatları müəyyən edir. Lakin burada hüquqi və fiziki şəxslərin fəaliyyəti ilə bağlı ***kommersiya sirri hesab olunmayan məlumatların*** siyahısı verilir:

- ✓ təsis sənədlərində əksini tapan məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);
- ✓ sahibkarlıq fəaliyyətinin bəzi növləri ilə məşğul olmaq hüququ verən lisenziyalar haqqında məlumatlar;
- ✓ qanunvericilikdə nəzərdə tutulan hallarda auditor rəyi daxil olmaqla maliyyə (mühasibat) hesabatlarında olan məlumatlar;

[4] http://www.e-qanun.az/framework/2861

- ✓ Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən vergi ödəyicisi barədə vergi sirri hesab olunmayan məlumatlar;
- ✓ əməyin ödənilməsi formaları və məbləği barədə, əmək haqqı və sosial ödənişlər üzrə borclar, işçilərin say tərkibini, boş iş yerlərinin mövcudluğunu əks etdirən məlumatlar;
- ✓ patent və digər mühafizə sənədləri ilə qorunan əqli mülkiyyət obyektləri haqqında məlumatlar;
- ✓ qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qiymətli kağızların emitenti, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, mərkəzi depozitar, səhmdar investisiya fondu və investisiya fondunun idarəçisi tərəfindən açılmalı olan məlumatlar;
- ✓ qeyri-kommersiya təşkilatlarının fəaliyyəti barədə məlumatlar;
- ✓ özəlləşdirmənin dövlət proqramının həyata keçirilməsi və konkret obyektlərin özəlləşdirmə şərtləri barədə məlumatlar;
- ✓ hüquqi şəxsin ləğvi və onun kreditorları tərəfindən tələblərin irəli sürülməsi qaydası və müddəti barədə məlumatlar;
- ✓ Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən barəsində məsuliyyət növü nəzərdə tutulan əməllərə dair məlumatlar ;
- ✓ ekoloji və antiinhisar qanunvericiliyinə əməl olunması, əməyin təhlükəsizliyinin təmin edilməsi, əhalinin sağlamlığına ziyan vura bilən məhsulların satışı ilə bağlı məlumatlar;
- ✓ kommersiya sirri rejiminin qoyulması qüvvədə olan qanunvericiliklə məhdudlaşdırılan məlumatlar;
- ✓ telekommunikasiya operatoruna və telekommunikasiya provayderinə nömrə resursunun ayrılması, dəyişdirilməsi və geri alınması haqqında məlumatlar;
- ✓ qanunvericiliyə əsasən kommersiya sirri hesab edilməyən digər məlumatlar.

Orada vurğulanır ki, hüquqi və fiziki şəxslərin fəaliyyəti ilə bağlı bu siyahıya daxil olmayan məlumatlar kommersiya sirri hesab edilir. Qanuna əsasən kommersiya sirrinin rejimi kommersiya sirrinin sahibi tərəfindən müəyyən olunur.

Qeyd olunmalıdır ki, hüquqi və fiziki şəxslərin bank sirrini təşkil edən məlumatlarının qorunması və istifadəsi bank qanunvericiliyi ilə tənzimlənir.

## 1.3) Açıqlanmalı ictimai informasiyalar, açıqlanma üsulları və informasiya sahibləri

***“İnformasiya əldə etmək haqqında”* Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirən əsas qanun “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunudur[5]. Bu qanunda ictimai informasiyanın anlayışı, açıqlanması məcburi olan ictimai informasiyaların siyahısı, informasiya sahiblərinin müəyyənliyi, ictimai informasiyaların açıqlanması üsulları və ictimai

---

[5] http://www.e-qanun.az/framework/11142

informasiyaların açıqlanması ilə bağlı yaranan digər münasibətlərin tənzimlənməsi məsələləri əksini tapıb.

Qanunun 2-ci maddəsinə əsasən, Azərbaycanda informasiyanın əldə olunması azaddır, hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir. İnformasiya sahibi sorğu edilən informasiyaya malik olduqda onu sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə əldə etmək, belə məlumat olmadıqda isə onu əldə etmək üçün yardımçı məlumatlar almaq hüququna malikdir.

Qanunun 3-cü maddəsində ***ictimai informasiyanın və informasiyanın açıqlanmasının anlayışları*** verilib:

- ✓ **ictimai informasiya** qanunlarla və ya digər normativ hüquqi aktlarla müəyyənləşdirilən ictimai vəzifələrin yerinə yetirilməsi prosesində yaradılan və ya əldə edilən faktlar, rəylər və bilgilərdir.
- ✓ **informasiyanın açıqlanması** - informasiyanın sorğu verilmədən kütləvi informasiya vasitələrində, rəsmi nəşrlərdə, sorğu və ya məlumat kitabçalarında yayılması, İnternet informasiya ehtiyatlarında yerləşdirilməsi, brifinqlərdə, mətbuat relizlərində və ya konfranslarında elan edilməsi, rəsmi və ya kütləvi tədbirlərdə bildirilməsidir.

Qanunun 6-cı maddəsinə informasiya əldə olunmasının əsas prinsipləri təsbit olunub. Həmin prinsiplərə əsasən ictimai informasiyalar maksimum açıq olmalı, informasiya sorğusu ən qısa zamanda və ən münasib üsulla təmin edilməlidir.

**İnformasiya sahibləri və onların vəzifələri**

Qanunun 9-cu maddəsində informasiya sahiblərinin kimliyinə aydınlıq gəitirilir. Qanuna əsasən aşağıdakılar ***informasiya sahibləri*** sayılır:

- ✓ dövlət orqanları və bələdiyyələr;
- ✓ ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslər.

Qanuna əsasən aşağıdakılar ***informasiya sahiblərinə bərabər tutulur***:

- ✓ əmtəə bazarında hökmran mövqe tutan, xüsusi və ya müstəsna hüquqa, yaxud təbii inhisara malik olan hüquqi şəxslər - malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə, həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyalar üzrə;
- ✓ tamamilə və ya qismən dövlət mülkiyyətində, yaxud asılılığında olan qeyri-kommersiya təşkilatları, büdcədənkənar fondlar, həmçinin dövlətin üzvü olduğu və ya iştirak etdiyi kommersiya birlikləri - dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid informasiyalar üzrə.

**Nazirlər Kabinetinin 1 sentyabr 2016-cı il, 338 saylı qərarı**[6] ilə ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin siyahısı təsdiqlənib. Qərara əsasən ictimai informasiya sahibi olaraq ***ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərə*** aşağıdakılar daxildir:

- ✓ Publik hüquqi şəxslər;
- ✓ İctimai birliklər və fondlar;
- ✓ Dini qurumlar;
- ✓ Kredit təşkilatları;
- ✓ Sığorta şirkətləri;
- ✓ İnvestisiya fondları və bu fondların idarəçiləri;
- ✓ Qeyri-dövlət sosial fondlar.
- ✓ Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər;
- ✓ Qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər;
- ✓ Kütləvi informasiya vasitələri ilə məhsullarının istehsalını və (və ya) yayılmasını həyata keçirən hüquqi şəxslər;
- ✓ Telekommunikasiya xidməti göstərən müəssisələr;
- ✓ Poçt müəssisələri;
- ✓ Müntəzəm sərnişin və yük daşımalarını həyata keçirən nəqliyyat müəssisələri;
- ✓ Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 iyun tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmiş "Kommersiya təşkilatlarının (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün meyar göstəriciləri"nə cavab verən hüquqi şəxslər.

Qanunun 10-cu maddəsi ***informasiya sahibinin vəzifələrini*** müəyyən edir. Həmin maddənin tələbinə əsasən informasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu Qqanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur.

İnformasiya sahibi:

- informasiya sorğusunu ən qısa zamanda və sorğuçu üçün ən münasib üsulla təmin etməlidir;
- sənədlərin reyestrini aparmalıdır;
- ictimai vəzifələrin yerinə yetirilməsi haqqında ictimaiyyətə müntəzəm məlumat verməlidir;
- açıqlamalı olduğu ictimai informasiyanı bu Qanunla müəyyənləşdirilmiş qaydada və müddətdə açıqlamalıdır;
- sorğuçuya kömək göstərməlidir;
- informasiyanın əldə olunmasına qoyulan məhdudiyyətlər barədə sorğuçuya məlumat verməlidir;
- əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları qorumalıdır;
- həqiqətə uyğun olmayan, natamam və ya qeyri-dəqiq informasiya verməməli, şübhə yarandığı hallarda informasiyanın düzgünlüyünü və mötəbərliyini yoxlamalıdır.

---

[6] http://www.e-qanun.az/framework/33634

Qanunun 10-cu maddəsinin dahabir tələbinə əsasən, informasiya sahibi informasiya açıqlığını təmin etmək məqsədlə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edir, yaxud struktur bölmə yaradır, informasiya xidmətləri göstərir.

**İnformasiya məsələləri üzrə vəzifəli şəxs və ya struktur bölmə** aşağıdakı funksiyaları yerinə yetirir:

- ❖ sorğuları diqqətlə araşdırıb qərarlar qəbul edir;
- ❖ sorğuları bu Qanunla nəzərdə tutulmuş qaydada təmin edir;
- ❖ informasiya xidmətlərinin göstərilməsinə nəzarət edir;
- ❖ informasiya əldə edilməsi ilə bağlı informasiya sahibinə göndərilən şikayətləri araşdırıb qərar qəbul edir;
- ❖ informasiya xidmətləri göstərilməsi ilə bağlı digər vəzifələri yerinə yetirir.

**Diqqət:** Qanunun 10-cu maddəsinin 10.3-cü bəndində vurğulanır ki:

- ☑ informasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması və ya struktur bölmənin yaradılmaması informasiya xidmətləri göstərməkdən imtina üçün əsas ola bilməz.

**İnformasiya sorğusu ilə informasiyanın alınması**

Qanunun "İnformasiyanın əldə olunmasının sorğu əsasında təmin edilməsi" adlı 3-cü fəslində (13-28-ci maddələr) ictimai informasiyaların informasiya sorğusu əsasında əldə edilməsi, informasiya sorğusunun hazırlanması, təqdim edilməsi, onun cavablandırılması üsulları və müddətləri, informasiya soröusunun cavablandırılmasından imtina halları və sorğu vasitəsilə informasiya alınması zamanı meydana çıxan digər münasibətlərin tənzimlənməsi məsələləri əksini tapıb.

Qanunda ***informasiya sorğusunun təqdim edilməsinin 2 üsulu*** müəyyən edilib (*maddə 13*):

- ☑ informasiya sahibinin vəzifəli şəxsinə bilavasitə və ya telefonla müraciət etmək yolu ilə şifahi;
- ☑ sorğunu şəxsən təqdim etmək və ya informasiya sahibinə poçt, telefaks, yaxud elektron poçtla göndərmək yolu ilə yazılı.

İnformasiya əldə etmək üçün yazılı şəkildə sorğu ilə müraciət edən vətəndaş ***sorğusunun aşağıdakı formalardan birində təmin edilməsini*** tələb edə bilər (*maddə 14*):

- sənədlə tanış olmaq üçün ayrılmış yerə daxil olma;
- sənədin üzünün köçürülməsi;
- informasiya sahibinin texniki imkanlarından istifadə etməklə sənədin surətinin çıxarılması və ya sənədin təsdiqlənmiş surətinin verilməsi;
- sorğuçunun öz texniki imkanlarından istifadə etməklə sənədin surətinin çıxarılması;
- stenoqramların və ya digər formada kodlaşdırılmış sənədlərin oxunmaq üçün yararlı vəziyyətdə təqdim edilməsi;
- sənədin tərcümə olunması;
- sənədin surətinin elektron daşıyıcılara köçürülməsi və s.

Yazılı informasiya sorğusunda ***aşağıdakı məlumatlar*** göstərilməlidir:

- ✓ sorğuçunun adı və soyadı;
- ✓ sorğu hüquqi şəxs tərəfindən təqdim edildikdə həmçinin hüquqi şəxsin adı;
- ✓ informasiya sahibinin sorğunu təmin edə bilməsi üçün sorğuçuya aid əlaqə məlumatları (poçt və ya elektron poçt ünvanı, telefon və ya telefaks nömrəsi);
- ✓ sorğu edilən informasiyanın məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri;
- ✓ informasiyanın təqdim edilmə forması.

Yazılı sorğu fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır. Yazılı sorğunu qəbul etməkdən imtina qadağandır.

**Yazılı informasiya sorğusunun bir nümunəsi**:

Sorğunun ünvanlandığı qurumun adı: XXX

Sorğunun ünvanlandığı vəzifəli şəxsin adı: XXX

Sorğuçu: XXX

Ünvan: XXX

Mobil: XXX

E-mail:XXX

**İNFORMASİYA SORĞUSU**

Xahiş edirəm,

İçtimai informasiyalar kateqoriyasına aid olduğunu,qanunla açıq informasiyalar hesab edildiyini nəzərə alaraq aşağıdakı informasiyaları İnformasiya əldə ttmək haqqında Azərbaycan Respublikasının Qanununun müəyyən etdiyi müddətədə mənə verilməsini təmin edəsiniz.

1. ......
2. .......
3. .......

**İnformasiya verilməsi üsulu:** yazılı (məktubla yuxarıda göstərilən ünvana göndərməklə və ya elektron poçt vasitəsi ilə (yuxarıda qeyd olunan e-mailə).

**İmza:_____________**

**Tarix:**

İnformasiya sahibi sorğuda tələb olunan informasiyanı ***aşağıdakı üsullarla icra edir***:

- elektron informasiya daşıyıcısında yazmaqla və ya sorğuda göstərilən elektron poçt ünvanı üzrə göndərməklə;
- sənədin surətini və ya sənəddən çıxarışı sorğuçuya bilavasitə təqdim etməklə və ya onun poçt ünvanına göndərməklə;
- telefaksla;
- şifahi formada;

- informasiya ilə tanış olmaq üçün ayrılmış yerə girməyə icazə verməklə;
- informasiya daşıyıcısının növünü nəzərə almaqla başqa üsullarla.

İnformasiya sahibi informasiya sorğusunu daxil olduğu gün qeydə alır. İnformasiya sahibinin vəzifəli şəxsi araşdırmanın nəticəsindən asılı olaraq aşağıdakı qərarlardan birini qəbul edir (*maddə 20*):

a) sorğunun icrasından imtina edir;

b) sorğunun icrasını təmin edir;

c) sorğunu aidiyyəti informasiya sahibinə göndərir.

Qanuna əsasən, informasiya sorğusu ən qısa müddətdə, lakin *7* ***iş günündən gec olmayaraq*** icra edilir (*maddə 24*). Bu müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir. İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda isə axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində (istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) təqdim edilir.

Əgər sorğu natamam və ya qeyri-dəqiq tərtib olunubsa, vəzifəli şəxs müəyyən edilmiş çatışmazlıqlar barədə sorğuçuya 5 iş günü ərzində məlumat verir.

Sorğuçu informasiya ilə tanış olduqda əllə üzünü köçürdükdə və ya öz texniki imkanlarından istifadə edərək surətini çıxardıqda, habelə texniki kömək göstərilməyən digər hallarda informasiyanın əldə olunmasına görə haqq ödəmir.

İctimai informasiyaların əldə edilməsinə görə ***ödəniş tələb olunmur***. Qanuna əsasən, xüsusi hallarda informasiya xidməti üçün haqq alına bilər, bu şərtlə ki, ödəniş məbləği informasiyanın hazırlanması və təqdim edilməsi üçün çəkilən xərcdən artıq olmasın (*maddə 26*). Haqqı ödənilməklə göstərilən informasiya xidmətlərinin siyahısı müvafiq icra qurumu tərəfindən hazırlanıb ictimaiyyətə bəyan edilməlidir.

İnformasiya sorğusunu göndərən şəxs sorğunun icrasından imtina edilməsi, yaxud lazımınca icra olunmaması barədə ***məhkəməyə*** və ya Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) ***şikayət etmək hüququna*** malikdir (*maddə 27*).

**İnfornasiya sahibinin açıqlamalı olduğu informasiyalar**

Qanunun 29-cu maddəsinə əsasən, informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış yaxud əldə olunmuş aşağıdakı informasiyaları açıqlamalıdır:

1) ümumiləşdirilmiş statistik məlumatlar, o cümlədən cinayətlərin və inzibati xətaların ümumiləşdirilmiş statistikası;
2) büdcə proqnozları;
3) dövlət orqanlarının struktur bölmələri haqqında əsasnamələr;
4) dövlət orqanlarının və bələdiyyələrin fəaliyyətləri ilə bağlı hazırlanmış təlimatlar;
5) dövlət orqanlarının və bələdiyyələrin ştat cədvəlləri, həmin idarələrdə çalışan vəzifəli şəxslərin adları, soyadları, telefon nömrələri, elektron poçt ünvanları, həmçinin onların təhsili və ixtisasları barədə məlumatlar;
6) dövlət orqanlarının və bələdiyyələrin fəaliyyəti barədə hesabatlar;
7) ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) rəhbər orqanlarında çalışanların adları və soyadları, elektron poçt ünvanları;

8) dövlət və bələdiyyə satınalmalarının şərtləri, nəticəsi, eləcə də dövlət və bələdiyyə əmlakının satılması, onun üzərində əmlak hüquqlarının dəyişməsi barədə məlumatlar;
9) dövlət orqanları, bələdiyyələr və ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) aldıqları kreditlər, qrantlar onların şərtləri və istifadəsi haqqında məlumatlar;
10) normativ hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan;
11) normativ hüquqi aktlar qüvvəyə mindiyi gündən;
12) ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) fəaliyyətinə dair hesabatlar, onların gəlirləri və xərcləri barədə məlumatlar;
13) dövlət büdcəsinin və icmal büdcənin icrası barədə hesabatlar;
14) ətraf mühitin vəziyyətinə, ətraf mühitə ziyan vurulmasına, təhlükəli ekoloji təsirlərə və ətraf mühitə təsirin qiymətləndirilməsinə dair məlumatlar;
15) dövlət orqanlarının və bələdiyyələrin əmr, sərəncam və qərarları - əmr, sərəncam və qərarlar qüvvəyə mindiyi gündən;
16) dövlətin ictimai əhəmiyyətli konsepsiyalarının, inkişaf planlarının və proqramlarının layihələri təsdiq olunmağa təqdim edilənədək;
17) dövlət orqanlarının və bələdiyyələrin vakansiyaları haqqında məlumatlar;
18) dövlət orqanlarının və bələdiyyələrin mal və xidmətlərinə dair məlumatlar;
19) dövlət orqanları və bələdiyyələr tərəfindən təsis edilmiş və ya onların iştirakı ilə fəaliyyət göstərən özəl hüquqi şəxslərə dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə dair məlumatlar;
20) kütləvi tədbirlərin proqramları;
21) dövlət orqanlarının və bələdiyyələrin göstərdikləri xidmətlə bağlı dəyişikliklərə dair məlumatlar - bu dəyişikliyin edilməsinə ən geci on gün qalanadək;
22) dövlət və bələdiyyə orqanları rəhbərlərinin qəbul saatları barədə məlumatlar;
23) dövlət və bələdiyyə müəssisələrində qüvvədə olan əmək haqqı dərəcələri, əməyin ödənilməsinə dair təlimatlar, habelə əlavə haqların ödənilməsi qaydaları və xüsusi güzəştlər barədə məlumatlar;
24) ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin), həmçinin, normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi və fiziki şəxslərin bu funksiyaların yerinə yetirilməsi ilə bağlı malik olduqları informasiyalar;
25) əmtəə bazarında hökmran mövqe tutan, xüsusi və ya müstəsna hüquqa və yaxud təbii inhisara malik olan hüquqi şəxslər malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə, həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyalar - şərtlərin təklif edilməsinə və ya həmin şərtlərdə və qiymətlərdə dəyişiklik edilməsinə azı 30 gün qalmış;
26) tamamilə və ya qismən dövlət mülkiyyətində, yaxud asılılığında olan qeyri-kommersiya təşkilatlarına, büdcədənkənar fondlara, həmçinin dövlətin üzv olduğu və ya iştirak etdiyi kommersiya birliklərinə dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid informasiyalar;
27) əhaliyə göstərilən ictimai xidmətlər haqqında, habelə xidmət göstərilməsi zamanı onların qiymətlərində edilən dəyişikliklər barədə məlumatlar - bu dəyişikliklər edilənədək;

28) məhkəmə aktları;
29) qanunla nəzərdə tutulduğu həddə dövlət reyestrləri haqqında məlumatlar;
30) informasiya sahiblərinin reyestri;
31) ictimai rəy sorğusunun nəticələri;
32) informasiya sahibinin mülkiyyəti və mülkiyyət öhdəliyi haqqında məlumatlar;
33) dövlət sirri təşkil edən məlumatların siyahısı;
34) açıqlanması xüsusi qanunla, beynəlxalq müqavilələrlə və ya onların əsasında qəbul edilən normativ aktlarla müəyyənləşdirilən informasiyalar, yaxud informasiya sahibinin açıqlanmasını zəruri saydığı digər məlumatlar.

**Diqqət**: Sadalanan bu 34 qrup informasiyalar informasiya sahibləri tərəfindən heç bir müraciət olmadan açıqlanmalıdır! By informasiyalar informasiya sorğusunun predmeti ola bilməz!

Qanunun 30-cu maddəsinə əsasən yuxarıda sadalanan ictimai informasiyalar ***internet informasiya ehtiyatlarında*** açıqlanmalıdır. Bundan başqa həmin informasiyalar həmçinin aşağıdakı üsullarla açıqlana bilər:

- kütləvi informasiya vasitələrində;
- rəsmi nəşrlərdə;
- kitabxanalarda, ictimai informasiya mərkəzlərində, kütləvi istifadənin mümkün olduğu digər yerlərdə sənədlərlə tanış olmaq üçün şərait yaradılması yolu ilə;
- qanunvericilikdə nəzərdə tutulan başqa üsullarla.

Qanunun tələbinə əsasən, informasiya sahibi ictimai informasiyanı elə üsulla açıqlamalıdır ki, bu informasiya ehtiyacı olan hər kəsə mümkün qədər tez çatsın (*maddə 31*).

**İnternet informasiya ehtiyatlarının yaradılması**

Qanunda göstərilir ki, dövlət orqanları və bələdiyyələr yuxarıdakı siyahıda olan ictimai informasiyaları açıqlamaq üçün İnternet informasiya ehtiyatları yaradırlar. Müvafiq icra hakimiyyəti orqanları onların tabeliyində olan dövlət orqanlarının İnternet informasiya ehtiyatları formalaşdırmalarına şərait yaratmalıdırlar. Bu məqsədlə ***sahə (korporativ), regional və s. formada*** İnternet informasiya ehtiyatları yaradıla bilər (*maddə 32*).

İnformasiya sahibləri:

- İnternet informasiya ehtiyatları ilə tanış olmaq imkanları barədə məlumatı əks etdirən müvafiq ünvanları və ya onlara edilən dəyişiklikləri kütləvi informasiya vasitələrində açıqlamaq yolu ilə ictimaiyyətə çatdırırlar;
- İnternet informasiya ehtiyatlarında ən yeni və aktual informasiyaları yerləşdirirlər;
- köhnəlmiş, natamam, qeyri-dəqiq və ya çaşqınlıq yaradan informasiyaları İnternet informasiya ehtiyatlarında yerləşdirməkdən imtina edirlər;
- İnternet informasiya ehtiyatlarının etibarlı fəaliyyətini təmin edirlər.

İnformasiya sahibi İnternet informasiya ehtiyatlarında ***sənədin yerləşdirildiyi vaxtı*** və digər üsullarla açıqlanması tarixini göstərməlidir (*maddə 33*).

Qanunun 5-ci fəslində (34-41-ci maddələr) xidməti istifadə üçün nəzərdə tutulan informasiyalar, onların aşıqlanmasına qoyulan məhdudiyyətlər, ictimaiyyət üçün aşıqlanması həddləri və xidməti informasiyaların dövriyyəsi, qorunması və açıqlanması ilə bağlı meydana çıxan digər münasibətləri tənzimlənməyən müddəalar əksini tapıb.

**Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu**

İctimai əhəmiyyətli informasiyanın açıqlanması şərtlərini və qaydalarını özündə ehtiva edən qanunvericilik sənədlərindən biri də Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunudur[7] (*2 iyul 2002-ci il, № 358-IIQ* ).

Qanunun "Dövlət büdcəsi haqqında qanun layihəsinin dərc edilməsi" adlı 14-cü maddəsində qeyd olunur ki, "növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi bu Qanunun 12.1.1 - 12.1.10-cu maddələrində göstərilən sənədlərlə birlikdə Azərbaycan Respublikasının Milli Məclisinə daxil olduğu tarixdən ***10 gün ərzində*** mətbuatda dərc edilir". Qanunun tələbinə uyğun olaraq, növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ilə birlikdə mətbuatda dərc edilməli sənədlərə aşağıdakılar aiddır:

- növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi və qanun layihəsinə dair izahat;
- Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;
- büdcə-vergi siyasətinin əsas istiqamətləri;
- dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar;
- büdcə gəlirləri təsnifatının, funksional, iqtisadi və inzibati təsnifatların paraqrafları səviyyəsində gəlirlərin və xərclərin layihəsi;
- dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumat;
- növbəti il üzrə icmal büdcənin funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində layihəsi;
- növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcənin, habelə sonrakı üç il üzrə icmal büdcənin layihələrinə uyğun olaraq mühüm investisiya layihələrini özündə əks etdirən dövlət investisiya proqramının layihəsi;
- Azərbaycan Respublikasının ərazisi üzrə toplu maliyyə balansı;
- qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunması nəzərdə tutulduğu hallarda növbəti büdcə ili üzrə büdcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələri və qanun layihələrinə dair izahat;

Büdcə sistemi haqqında Qanunun "*Yerli büdcənin müzakirəsi və təsdiqi" adlı 36-cı maddəsin*də qeyd olunur ki, "Növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən ***10 gün ərzind***ə yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir".

Qanunun *37-ci maddəsində* ("*Yerli büdcənin icrası*" adlanır) isə bələdiyyə büdcələrinin icrası barədə illik hesabatların mütləq şəkildə əhaliyə təqdim edilməsi tələb olunur və hesabatların yerli əhaliyə çatdırılması formaları da orada qeyd olunur:

- Bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında yarımillik və illik hesabatı bələdiyyə iclasına təqdim edir. Yarımillik maliyyə hesabatları hesabat dövründən sonrakı ayın 15-dək, illik maliyyə hesabatları isə növbəti ilin yanvarın 30-dək təqdim edilməlidir. Bələdiyyələr təqdim edilmiş maliyyə hesabatlarını bələdiyyə iclasının qərarı ilə 15 (on beş) iş günü müddətində təsdiq edirlər.

---

[7] http://www.e-qanun.az/framework/1126

***Yerli əhalini tanış etmək məqsədilə bələdiyyələr illik hesabatı onlara elan, bülleten, vərəqə, yerli mətbuat, rəsmi internet saytı və s. vasitələrlə çatdırırlar*** (*maddə 37.7*).

**İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu** (*3 aprel 1998-ci il, № 460-IQ*)

Bu Qanun informasiyanın yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyir və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edir.

Qanunun 2-ci maddəsində qeyd edilir ki, açıq informasiya əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş sənədləşdirilmiş informasiyadır. 3-cü maddənin tələbinə görə isə dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya almaq hüquqlarını təmin etməlidirlər.

**"Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**[8] (16 fevral 2011-ci il, № 385)

Dövlət başçısının fərmanı ilə təsdiqlənən **"**Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"na əsasən ***informasiya sahibləri hər hansı sorğu verilmədən öz aktlarını internet informasiya ehtiyatlarında yerləşdirməlidirlər***. İnformasiya sahiblərinin aktları dedikdə, burada aşağıdakılar nəzərdə tutulur:

- ✓ hüquqi aktlar (normativ hüquqi aktlar, normativ xarakterli aktlar və qeyri-normativ hüquqi aktlar),
- ✓ hüquqi aktların layihələri,
- ✓ məhkəmə aktları.

Qaydanın 2-ci bölməsinin tələblərinə görə, informasiya sahiblərinin aktları həm özlərinin internet informasiya ehtiyatında, aktların dərc edildiyi rəsmi dövri mətbu nəşrlərin internet informasiya ehtiyatlarında mütləq qaydada açıqlanmalıdır. Lakin ondan sonra digər internet informasiya ehtiyatlarına həmin aktları yaymağa məhdudiyyət qoyulmur.

Qaydaların 3-cü bölməsinin tələblərinə əsasən, hüquqi aktlar qüvvəyə mindiyi gündən, hüquqi aktların layihələri razılaşdırılmaya göndərildiyi andan internet informasiya ehtiyatında açıqlanır.

**Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 fevral 2007-ci il tarixli 33 saylı qərarı ilə "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları" təsdiq edilib[9]. Həmin Qərara əsasən dövlət orqanları və bələdiyyələr "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci maddəsində göstərilən ictimai

---

[8] http://e-qanun.gov.az/framework/21304

[9] http://www.e-qanun.az/framework/12852

informasiyaları açıqlamaq üçün İnternet informasiya ehtiyatları yaratmalıdırlar. Eyni zamanda, mərkəzi icra hakimiyyəti orqanları onların tabeliyində olan dövlət orqanlarının İnternet informasiya ehtiyatları formalaşdırmalarına şərait yaratmalıdırlar. Bu məqsədlə sahə (korporativ), regional və s. formada İnternet informasiya ehtiyatları yaradıla bilər.

## 1.4) Yerli icra hakimiyyətlərinin ictimai informasiyanı açıqlamasına tələblər

**Yerli icra hakimiyyətləri haqqında Əsasnamə**

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnaməyə"[10] əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin I hissəsinə uyğun olaraq, yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər (*1.2-ci bənd*).

Əsasnamənin 5-ci bəndində yerli icra hakimiyyəti sisteminə daxil olan qurumlar dəqiqləşdirilir. Həmin bəndə əsasən, ***yerli icra hakimiyyəti sisteminə*** aşağıdakılar daxildir:

- ✓ yerli icra hakimiyyətinin başçısı və müvafiq inzibati ərazi vahidində onun fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan aparat,
- ✓ inzibati ərazi dairələri üzrə nümayəndəliklər,
- ✓ sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər,
- ✓ yerli icra hakimiyyəti başçısının yanında olan *orqanlar,*
- ✓ tabeliyində olan dövlətə məxsus hüquqi şəxslər,
- ✓ mərkəzi icra hakimiyyəti orqanlarının (*Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti* ***istisna olmaqla***) və onların yanında dövlət xidmətlərinin və dövlət agentliklərinin şəhər, rayon və şəhər rayonu qurumları,
- ✓ habelə mərkəzi icra hakimiyyəti orqanlarının sisteminə daxil olan və fəaliyyəti yalnız müvafiq inzibati ərazi vahidinin hüdudları ilə məhdudlaşan qurumlar.

**Diqqət:** Əsasnamədə vurğulanır ki, bu bənddə nəzərdə tutulan mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumları ***ikili tabelikdədir*** - onlar həm müvafiq mərkəzi icra hakimiyyəti orqanına, həm də yerli icra hakimiyyətinin başçısına tabedirlər. Yerli icra hakimiyyətinin başçısı müvafiq ərazidə fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarına ümumi rəhbərliyi həyata keçirir.

Əsasnamənin 3-cü bəndində yerli icra hakimiyyəti başçısının vəzifələri sadalanır. Həmin vəzifələr sırasında malik olduğu və qanunvericilikdə açıqlanması nəzərdə tutulan informasiyaları özünün saytında vaxtlı-vaxtında açıqlamaq vəzifəsi də yer alıb:

- ❖ yerli icra hakimiyyəti orqanının fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, yerli icra hakimiyyətinin internet saytının yaradılmasını, malik olduğu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın yeniləşdirilməsini təmin edir, ilin yekunları ilə bağlı yerli icra hakimiyyətinin fəaliyyətinə dair hesabatı dərc etdirir, öz fəaliyyətində ictimai rəyi nəzərə alır.

[10] http://www.e-qanun.az/framework/23701

**Yerli icra hakimiyyəti başçısının informasiya açıqlamasısahəsində vəzifələri**

**Yerli icra hakimiyyəti başçısı aşağıdakılrı təmin edir:**

- ✓ **yerli icra hakimiyyəti orqanının fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını,**
- ✓ **yerli icra hakimiyyətinin internet saytının yaradılmasını,**
- ✓ **malik olduğu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini**
- ✓ **yuxarıda qeyd olunan informasiyanın yeniləşdirilməsini.**

**Bununla yanaşı yerli icra hakimiyyəti başçısı:**

- ☑ **ilin yekunları ilə bağlı yerli icra hakimiyyətinin fəaliyyətinə dair hesabatı dərc etdirir,**
- ☑ **öz fəaliyyətində ictimai rəyi nəzərə alır.**

**(*Yerli icra hakimiyyəti haqqında Əsasnamədən çıxarış*)**

Qeyd etməliyik ki, yerli icra hakimiyyəti ərazinin sosial-iqtisadi inkişafı sahəsində çox geniş vəzifələr daşıyır və müvafiq səlahiyyətlərə malikdir. Əsasnamənin 3.2-ci bəndində göstərilir ki, yerli icra hakimiyyəti

- mərkəzi icra hakimiyyəti orqanlarının, dövlətə məxsus müəssisələrin və səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin müvafiq ərazidə fəaliyyət göstərən yerli qurumları ilə, habelə bələdiyyələr və digər təşkilatlarla birlikdə şəhərin, rayonun, şəhər rayonunun sosial-iqtisadi vəziyyətini təhlil edir, inkişaf meyillərinin müəyyənləşdirilməsi, sosial-iqtisadi inkişafın proqnozlaşdırılması və planlaşdırılması, əhalinin sosial əhəmiyyətli sifarişlərinin öyrənilməsi işini təşkil edir, ərazinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlayır və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edir;
- regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqram və konsepsiyalarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının hazırlanmasına dair təkliflər verir, müvafiq ərazidə onların həyata keçirilməsini təmin edir, icrası barədə Azərbaycan Respublikasının Prezidentinə, Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinə məlumat verir və illik hesabatlar təqdim edir;
- müvafiq ərazinin sosial-iqtisadi inkişafına dair göstəriciləri əks etdirən məlumat bazasının formalaşmasını və yeniləşdirilməsini təmin edir.

Göründüyü kimi, ərazinin sosial-iqtisadi inkişafının bütün sahələrində yerli icra hakimiyyəti başçısı əraziyə aid müvafiq informasiyaların sahibi qismində çıxış edir və qanunvericilikdə açıqlanması tələb olunan ictimai informasiyalara uyğun müvafiq əraziyə (rayona) aid məlumatları saytında yerləşdirmək və vaxtlı-vaxtında yeniləmək onun vəzifələrinə daxildir.

Bundan əlavə, Əsasnamənin 4.1.17-ci maddəsinə uyğun olaraq, yerli icra hakimiyyəti başçısı onun inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yanında olan orqanların və tabeliyində olan hüquqi şəxslərin fəaliyyəti barədə ***hesabatların dərc olunması nəzərdə tutulan kütləvi informasiya vasitələrini*** müəyyən etməlidir.

## 1.5) İctimai xidmətlər göstərən dövlət şirkətlərinin şəffaflıq, hesabatlılıq və informasiya açıqlığına qarşı tələblər

**Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu**[11]

Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununda (*29 iyun 2004-cü il, № 716-IIQ*) "ictimai əhəmiyyətli qurumlar"ın müəyyənliyi verilib (*maddə 2.1.9*). Həmin müəyyənlikdə göstərilir ki, i***ctimai əhəmiyyətli qurumlara*** aşağıdakılar aiddir:

- kredit təşkilatları,
- sığorta şirkətləri,
- investisiya fondları və bu fondların idarəçiləri,
- qeyri-dövlət (özəl) sosial fondları,
- qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər,
- qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər,
- maliyyə hesabatlarının tərtibi tarixində müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi meyar göstəricilərinin (illik gəliri, hesabat ili ərzində işçilərin orta sayı və balansın yekun məbləği) ikisindən yuxarı olan göstəricilərə malik kommersiya təşkilatları.

Kommersiya təşkilatlarının (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün meyar göstəriciləri Azərbaycan Respublikası ***Nazirlər Kabinetinin 20 iyun 2005-ci il tarixli 108 saylı Qərarı***[12] ilə təsdiq edilib. Nazirlər Kabinetinin 2 avqust 2019-cu il tarixli 341 nömrəli qərarı[13] ilə meyarlarda dəyişiklik edilib. Həmin dəyişikliyə uyğun olaraq, hazırda kommersiya təşkilatlarının ictimai əhəmiyyətli qurum hesab olunması üçün əsas götürülən meyarlar aşağıdakı kimi müəyyən edilib;

- ☑ təşkilatın illik gəlirliyi - 180 milyon manat,
- ☑ hesabat ili ərzində işçilərinin orta hesabla sayı - 1500 nəfər,
- ☑ balansın yekun məbləği - 450 milyon manat.

Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununun tələbinə əsasən, kommersiya təşkilatının ictimai əhəmiyyətli qurum sayılması üçün bu göstəricilərdən azı ikisi təmin olunmalıdır.

Mühasibat uçotu haqqında Qanunun 8.2-ci maddəsi tələb edir ki, "bir və ya daha çox törəmə cəmiyyətə malik olan hər hansı ictimai əhəmiyyətli qurum hüquqi şəxs kimi hazırladığı maliyyə hesabatından əlavə olaraq, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları tərtib etməlidirlər".

---

[11] http://www.e-qanun.az/framework/5458
[12] http://www.e-qanun.az/framework/10051
[13] http://e-qanun.az/framework/43158

Qanun 12-ci maddəsində ictimai əhəmiyyətli kommersiya ***təşkilatlarının maliyyə hesabatlarının təqdim və dərc edilməsi qaydası*** öz əksini tapıb. Həmin maddənin tələbinə əsasən, ictimai əhəmiyyətli qurumlardan və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hazırlayan kommersiya təşkilatlarından tələb edilir ki (*maddə 12.3*):

- qurumun internet səhifəsi olduqda, həmin məlumatlardan sərbəst istifadə edilməsini təmin etmək şərtilə, illik maliyyə hesabatını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını, qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə, həmin internet səhifəsində və ya mətbu orqanda dərc olunsun;
- qurumun illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının nüsxəsini qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə hər hansı şəxsə, onun müraciəti əsasında pulsuz təqdim olunsun.

Qanunun IV-I fəsli ***publik hüquqi şəxslərin*** mühasibat uçotu və maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi məsələlərini əhatə edir.

Qanunun *12-1.7-ci maddəsi*nə əsasən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxslər illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təsisçiyə təqdim edirlər.

Maddə 12-1.8-də qeyd olunur ki: "dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin dövlət büdcəsindən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı vəsait ayrılan publik hüquqi şəxslər (bu Qanunun 12-1.2-ci maddəsində göstərilənlər istisna olmaqla) illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər".

**Nazirlər Kabinetinin 26 noyabr 2018-ci il tarixli 504 saylı qərarı**[14]

Nazirlər Kabinetinin 26 noyabr 2018-ci il tarixli 504 saylı qərarı ilə "Büdcə təşkilatlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin, büdcədənkənar dövlət fondlarının, səhmlərinin (paylarının) 30 faizi və ya daha artıq hissəsi dövlətə məxsus olan təsərrüfat cəmiyyətlərinin illik maliyyə fəaliyyəti haqqında məlumatlarının, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyanın internet informasiya ehtiyatlarında açıqlanması Qaydası" təsdiq edilib.

Həmin qaydaya əsasən, büdcə təşkilatları və səhmlərinin (paylarının) 30 faizi və ya daha artıq hissəsi dövlətə məxsus olan təsərrüfat cəmiyyətləri tərəfindən illik maliyyə fəaliyyəti haqqında məlumatlar, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyalar açıqlanmalıdır. Bu qaydalar həmçinin dövlət adından yaradılan publik hüquqi şəxslərə və büdcədənkənar dövlət fondlarına da aiddir. Qeyd olunan subyektlər illik maliyyə fəaliyyətləri, o cümlədən dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid olan informasiyaları özlərinin internet informasiya ehtiyatlarında hesabat dövrü başa çatdıqdan sonra, müvafiq olaraq sonrakı ilin ***aprel ayının 30-dan gec olmayaraq*** açıqlamalıdırlar.

Təşkilatların internet informasiya ehtiyatlarında açıqlanan informasiyaya çıxış ***sərbəst və ödənişsiz*** olmalıdır. Açıqlanmış informasiyaya müraciət edilməsi zamanı istifadəçinin qeydiyyatdan keçməsi, istifadəçi barədə fərdi və digər məlumatların daxil edilməsi tələb edilmir.

---

[14] http://www.e-qanun.az/framework/40775

İnternet informasiya ehtiyatlarında açıqlanan informasiya standart proqram təminatları vasitəsilə oxuna bilən, həmçinin mətnin istənilən fraqmentinin köçürülməsinə və axtarışına imkan verən fayl formatında olmalıdır.

Qaydaya əsasən açıqlanan hesabatlarda təşkilatın gəlirləri (qeyri-birja əməliyyatlarından gəlir, birja əməliyyatlarından gəlir, sair əməliyyatlar gəlirləri, o cümlədən, dövlət büdcəsindən verilmiş vəsait üzrə gəlirlər) və xərcləri (əməkhaqqı xərcləri və dövlət sosial sığorta ayırmaları, maliyyə yardımları və sair transfer ödənişləri, sərf edilmiş materialların dəyəri, amortizasiya xərcləri və s.) barədə detallı məlumatlar yer almalıdır.

## 1.6) Bələdiyyələrin ictimai informasiyaları açıqlamasına tələblər

Bələdiyyə qanunvericiliyində bələdiyyə qurumlarının ictimai informasiyaları açıqlamaq öhdəlikləri qeyd edilir.

**Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu**[15]

Qanunun 3.5.-ci maddəsi ilə hər bir vətəndaşa bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciət etmək hüququ verilib.

Qanunun 3.6-cı maddəsinə görə, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşın tanış olmaq, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

Qanunun 30.1-ci maddəsi vətəndaşların bələdiyyələrə bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququnu təsbit edir.

Qanunun 30.2-ci maddəsinə əsasən, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər.

Qanunun 30.3-cü maddəsində qeyd edilib ki, vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciətlərinə cavab verilməsi müddətlərinin və qaydasının pozulmasının müvafiq məsuliyyətə səbəb olur.

Qanunda bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsini nəzərdə tutuan 52-1-ci maddəsində qeyd edilib ki, bu qurumlar Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər həyata keçirilməsini "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq təmin edirlər.

Bundan əlavə 52-2.3-cü maddədə bələdiyyə qurumlarının seçicilərə hesabat vermək öhdəliyi yazılıb. Bu maddəyə görə, bələdiyyə hər ilin yanvar ayının üçüncü həftəsinin bazar ertəsi görülmüş işlər haqqında, o cümlədən maliyyə vəsaitlərinin və bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat verməlidir. Hesabat yazılı formada tərtib edilir və bələdiyyənin iclaslarında təsdiq edilir. Yerli əhalini tanış etmək məqsədi ilə hesabat bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilir, habelə elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və digər vasitələrlə əhaliyə çatdırılır.

---

[15] http://www.e-qanun.az/framework/4770

**Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu**[16]

Qanunun 9-cu maddəsinin tələbinə əsasən bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidir.

**Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu**[17]

Qanun yerli özünüidarə qurumlarının maliyyə fəaliyyəti barədə məlumatları ictimaiyyətə açıqlaması öhdəliklərini nəzərdə tutur.

Qanunun 10-cu maddəsində bələdiyyə qurumlarına yerli büdcə layihəsini dərc etmək tələbi qoyulub:

- növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin ***oktyabr ayının 15-dən gec olmayaraq*** bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir.
- yerli büdcənin layihəsi ***bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində*** yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir

Qanunun 11-ci maddəsində yerli büdcələrin icrası barədə yarımillik və illik hesabatların ictimaiyyətə açıqlanması tələbi təsbir olunub:

- Bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında yarımillik və illik hesabatı bələdiyyə iclasına təqdim edir.
- Yarımillik maliyyə hesabatları hesabat dövründən sonrakı ayın 15-dək, illik maliyyə hesabatları növbəti ilin yanvarın 30-dək təqdim edilməlidir.
- Bələdiyyələr təqdim edilmiş maliyyə hesabatlarını bələdiyyə iclasının qərarı ilə 15 (on beş) gün müddətində təsdiq edirlər.
- Yerli əhalini tanış etmək məqsədilə bələdiyyələr illik hesabatı onlara ***elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı*** və s. vasitələrlə çatdırırlar.

**Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunu**[18]

Qanunun 12.3-cü maddəsində qeyd edilir ki, bələdiyyələrin vergi və ödənişlərin yığılması və istifadəsi sahəsində fəaliyyəti tam aşkarlıq şəraitində həyata keçirilməlidir. Bu məqsədlə bələdiyyələr və onların müvafiq nəzarət komissiyaları bələdiyyə ərazisində yaşayan sakinlər qarşısında mütəmadi olaraq hesabatlar verir, bülletenlər buraxır, illik hesabatları bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirirlər.

**Bələdiyyə sifarişlərinin verilməsi Qaydaları**[19]

Azərbaycan Respublikasının Prezidentinin 4 iyul 2001-ci il tarixli 529 saylı Fərmanı ilə Bələdiyyə sifarişlərinin verilməsi Qaydaları təsdiq edilib. Həmin Qaydalara əsasən, bələdiyyə sifarişlərinin verilməsi haqqında məlumatlar yerli kütləvi informasiya vasitələri ilə elan edilməlidir.

Eyni zamanda bələdiyyələr bələdiyyə sifarişlərinin şərtləri və nəticəsi barədə məlumatları qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlamalıdırlar.

---

[16] http://www.e-qanun.az/framework/507
[17] http://www.e-qanun.az/framework/5231
[18] http://www.e-qanun.az/framework/1470
[19] http://www.e-qanun.az/framework/4377

# 2. Regionlarda ictimai informasiyaya əlçatanlıq, dövlət qurumlarının şəffaflıq və hesabatlılıq sahəsində durumunu qiymətləndirmək üçün

# İNDİKATORLAR

## 1. Yerli (şəhər, rayon) icra hakimiyyəti orqanları üzrə:

1.1. Rayon (şəhər) İcra Hakimiyyətinin aparatının saxlanması xərcləri barədə məlumatların açıqlığı
1.2. Rayon (şəhər) İcra Hakimiyyətinin aparatının saxlanması xərclərinin strukturu barədə məlumatların açıqlığı
1.3. Rayon (şəhər) İcra Hakimiyyətinin abadlaşdırma üçün xərclədiyi vəsaitlərin ümumi məbləği və xərclərin strukturu barədə məlumatların açıqlığı
1.4. Rayon (şəhər) İcra Hakimiyyətinin büdcədənkənar gəlirlərinin ümumi məbləği və gəlirlərin strukturu barədə məlumatların açıqlığı
1.5. Rayon (şəhər) İcra Hakimiyyətinin büdcədənkənar xərclərinin ümumi məbləği və xərclərin strukturu barədə məlumatların açıqlığı
1.6. İl ərzində rayon (şəhər) ərazisində formalaşan və daşınan məişət tullantılarının həcmi barədə məlumatların açıqlığı
1.7. Rayon (şəhər) İcra Hakimiyyətinin vəzifəli şəxslərinin siyahısı və əlaqə məlumatlarının mövcudluğu
1.8. Rayon (şəhər) İcra Hakimiyyətinin sərəncamında olan yaşayış və qeyri-yaşayış sahələri və torpaq fondunun həcmi və tərkibi barədə məlumatların açıqlığı
1.9. Rayon (şəhər) İcra Hakimiyyətinin həyata keçirdiyi satınalmalar barədə məlumatların (elanlar və nəticələr) açıqlığı
1.10. Rayonun (şəhərin) inkişaf planlarının (strategiyaların), o cümlədən baş planların mövcudluğu və açıqlıq səviyyəsi
1.11. Rayon (şəhər) İcra Hakimiyyətindən informasiya əldə etmək üçün edilən müraciətlərin sayı (aylıq, illik), ədəd
1.12. Rayon (şəhər) İcra Hakimiyyəti tərəfindən cavablandırılmış müraciətlərin sayı
1.13. Rayon (şəhər) İcra Hakimiyyəti tərəfindən tam cavablandırılmış müraciətlərin ümumi cavablandırılmış müraciətlərdə payı
1.14. Rayon (şəhər) İcra Hakimiyyəti nəzdindəki Apellyasiya Şuralarına edilmiş müraciətlərin sayı və strukturu
1.15. Rayon (şəhər) İcra Hakimiyyəti tərəfindən təqdim edilən cavabların verilmiş suala uyğunluğu
1.16. Rayon (şəhər) İcra Hakimiyyəti tərəfindən təqdim edilən cavabların anlaşıqlılıq səviyyəsi
1.17. Qurumun ayrıca internet səhifəsinin mövcudluğu
1.18. Rəsmi internet səhifəsində dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların mövcudluğu
1.19. Rəsmi internet səhifəsində yerləşdirilən hesabatın dövriliyi (aylıq, rüblük, yarımillik, illik)
1.20. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların açıqlanma davamlılığı
1.21. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların yüklənə bilmə funksiyasının mövcudluğu
1.22. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların maşınoxunma funksiyasının olması
1.23. İctimai informasiyanı əldə etmək üçün müraciət olunacaq müvafiq strukturun (şöbə, idarə və s) mövcudluğu

1.24. İctimai informasiyanı əldə etmək üçün müvafiq strukturla (şöbə, idarə və s) əlaqə saxlamaq imkanlarının mövcudluğu
1.25. İctimai informasiyanın əldə edilməsi kanallarının sayı
1.26. Rəsmi internet səhifəsində elektron qaydada (email, online) müraciət etmək funksiyasının mövcudluğu
1.27. Müvafiq qurumun sorğuları şifahi (telefon vasitəsilə) cavablandırması təcrübəsinin mövcudluğu
1.28. Yazılı sorğunun cavablandırılması qanunvericilikdə nəzərdə tutulan müddətdə icra olunması səviyyəsi
1.29. Qurumun ictimai informasiyanın açıqlığının təmin edilməsi sahəsində ayrıca strategiyası və tənzimləyici sənədinin mövcudluğu
1.30. İnformasiyaya məsul şəxsin vətədaşlarla əməkdaşlıq marağının səviyyəsi
1.31. Qurumun rəsmi çap və ya elektron mətbu məhsullarının mövcudluğu
1.32. Rəsmi internet səhifəsində axtarış sisteminin işlək vəziyyətdə olması
1.33. Qurumun vətəndaş cəmiyyəti ilə əməkdaşlıq marağının mövcudluğu
1.34. Vətəndaş cəmiyyəti təmsilçilərinin qurumun iclaslarında iştirak səviyyəsi

## 2. Mərkəzi icra hakimiyyət orqanlarının regional və yerli strukturları üzrə:

***a) Səhiyyə idarəsi***

2.1. Rayon (şəhər) üzrə səhiyyə xərclərinin xəstəxanalar, poliklinikalar və kənd həkim məntəqələri üzrə həcmi və strukturu
2.2. Rayon (şəhər) üzrə müalicəsi dövlət proqramlarında nəzərdə tutulan xəstəliklər üzrə xəstələrin, o cümlədən onlardan müalicəyə cəlb olunanların sayı haqqında məlumatların açıqlığı
2.3. Rayon (şəhər) ərazisində dövlət proqramları çərçivəsində ayrılan vəsaitlərin məbləği və xərclərin strukturu
2.4. Rayon (şəhər) dövlət səhiyyə sistemi üzrə büdcədənkənar gəlirlərin məbləği
2.5. Rayon (şəhər) dövlət səhiyyə sistemi üzrə büdcədənkənar xərclərin məbləği

***b) Təhsil idarəsi***

2.6. Rayon (şəhər) üzrə təhsil xərclərinin məktəbəqədər və digər təhsil obyüktləri üzrə həcmi və strukturu
2.7. Rayon (şəhər) üzrə dövlət proqramları üzrə xərclərin həcmi və strukturu haqqında məlumatların açıqlığı
2.8. Rayon (şəhər) dövlət təhsil sistemi üzrə büdcədənkənar gəlirlərin məbləği
2.9. Rayon (şəhər) dövlət təhsil sistemi üzrə büdcədənkənar xərclərin məbləği

***c) Kənd təsərrüfatı idarəsi***

2.10. Rayon (şəhər) üzrə kənd təsərrüfatına çəkilən xərclərin həcmi və strukturu
2.11. Rayon (şəhər) üzrə kənd təsərrüfatı sektoruna verilən subsidiyaların ümumi və növlər üzrə həcmi
2.12. Rayon (şəhər) üzrə kənd təsərrüfatı sektorunda subsidiya alanların siyahısı
2.13. Rayon (şəhər) ərzisində dövlət mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqların ümumi sahəsi, o cümlədən şoranlaşmış, keyfiyyətini itirmiş və suvarılan torpaqların sahəsi, onların icarəyə verilmiş hissəsi və icarəçilərin sayı
2.14. Rayon (şəhər) ərzisində melorasiyaya ayrılan vəsaitin həcmi

2.15. Rayon (şəhər) üzrə kənd təsərrüfatı istehsalının növlər üzrə həcmi
2.16. Rayon (şəhər) üzrə kənd təsərrüfatı torpaqlarının əkin növləri üzrə strukturu
2.17. Rayon (şəhər) üzrə kənd təsərrüfatı texnikasının növləri üzrə strukturu
2.18. Müvafiq dövlət qurumlarının fermerlərə göstərməli olduqları xidmətlərin siyahısı və həmin xidmətlərin göstərilmə şərtləri haqqında məlumatların açıqlığı

***d) Sosial müdafiə idarəsi***

2.19. Rayon (şəhər) üzrə sosial müdafiə sahəsində çəkilən xərclərin həcmi və strukturu
2.20. Rayon (şəhər) üzrə sosial müdafiə sistemi ilə əhatə olunan əhalinin sayı və tərkibi
2.21. Rayon üzrə yoxsulluğun səviyyəsi
2.22. Rayon üzrə dövlət proqramları üzrə xərclərin həcmi və strukturu haqqında məlumatların açıqlığı

***e) Statistika idarəsi***

*Növbəti indikatorlar (2.23.-2.46) hər bir idarə üzrə ayrıca cavablandırılır:*

2.23. Mərkəzi İcra hakimiyyət orqanlarının yerli strukturundan informasiya əldə etmək üçün edilən müraciətlərin sayı (aylıq, illik)
2.24. Mərkəzi İcra hakimiyyət orqanlarının yerli strukturu tərəfindən cavablandırılmış müraciətlərin sayı
2.25. Mərkəzi İcra hakimiyyət orqanlarının yerli strukturu tərəfindən tam cavablandırılmış müraciətlərin ümumi cavablandırılmış müraciətlərdə payı
2.26. Mərkəzi İcra hakimiyyət orqanlarının yerli strukturu tərəfindən təqdim edilən cavabların verilmiş suala uyğunluğu
2.27. Mərkəzi İcra hakimiyyət orqanlarının yerli strukturu tərəfindən təqdim edilən cavabların anlaşıqlılıq səviyyəsi
2.28. Qurumun ayrıca internet səhifəsinin mövcudluğu
2.29. Rəsmi internet səhifəsində dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların mövcudluğu
2.30. Rəsmi internet səhifəsində yerləşdirilən hesabatın dövriliyi (aylıq, rüblük, yarımillik, illik)
2.31. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların açıqlanma davamlılığı
2.32. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların yüklənə bilmə funksiyasının mövcudluğu
2.33. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların maşınoxunma funksiyasının olması
2.34. İctimai informasiyanı əldə etmək üçün müraciət olunacaq müvafiq strukturun (şöbə, idarə və s) mövcudluğu
2.35. İctimai informasiyanı əldə etmək üçün müvafiq strukturla (şöbə, idarə və s) əlaqə saxlamaq imkanlarının mövcudluğu
2.36. İctimai informasiyanın əldə edilməsi kanallarının sayı
2.37. Rəsmi internet səhifəsində elektron qaydada (email, online) müraciət etmək funksiyasının mövcudluğu
2.38. Müvafiq qurumun sorğuları şifahi (telefon vasitəsilə) cavablandırması təcrübəsinin mövcudluğu
2.39. Yazılı sorğunun cavablandırılması qanunvericilikdə nəzərdə tutulan müddətdə icra olunması səviyyəsi
2.40. Qurumun ictimai informasiyanın açıqlığının təmin edilməsi sahəsində ayrıca strategiyası və tənzimləyici sənədinin mövcudluğu
2.41. İnformasiyaya məsul şəxsin vətədaşlarla əməkdaşlıq marağının səviyyəsi
2.42. Qurumun rəsmi çap və ya elektron mətbu məhsullarının mövcudluğu

2.43. Rəsmi internet səhifəsində axtarış sisteminin işlək vəziyyətdə olması
2.44. Qurumun vətəndaş cəmiyyəti ilə əməkdaşlıq marağının mövcudluğu
2.45. Vətəndaş cəmiyyəti təmsilçilərinin qurumun iclaslarında iştirak səviyyəsi

## 3. Yerli özünüidarə (bələdiyyə) qurumları üzrə:

3.1. Rayon (şəhər) bələdiyyəsinin illik xərclərinin strukturu
3.2. Rayon (şəhər) bələdiyyəsinin illik gəlirlərinin strukturu
3.3. Rayon (şəhər) bələdiyyəsi ərazisində yaşayan vergi ödəyicilərinin sayı
3.4. Rayon (şəhər) bələdiyyəsi ərazisində bələdiyyə qurumu tərəfindən həyata keçirilən proqramların sayı
3.5. Rayon (şəhər) bələdiyyəsi tərəfindən icrəyə verilən və satılan torpaqlar və əmlakların həcmi və əldə edilən vəsaitlər barədə məlumatlar
3.6. Qurumun ayrıca internet səhifəsinin mövcudluğu
3.7. Rəsmi internet səhifəsində dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların mövcudluğu
3.8. Rəsmi internet səhifəsində yerləşdirilən hesabatın dövriliyi (aylıq, rüblük, yarımillik, illik)
3.9. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların açıqlanma davamlılığı
3.10. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların yüklənə bilmə funksiyasının mövcudluğu
3.11. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların maşınoxunma funksiyasının olması
3.12. İctimai informasiyanı əldə etmək üçün müraciət olunacaq müvafiq strukturun (şöbə, idarə və s) mövcudluğu
3.13. İctimai informasiyanı əldə etmək üçün müvafiq strukturla (şöbə, idarə və s) əlaqə saxlamaq imkanlarının mövcudluğu
3.14. İctimai informasiyanın əldə edilməsi kanallarının sayı
3.15. Rəsmi internet səhifəsində elektron qaydada (email, online) müraciət etmək funksiyasının mövcudluğu
3.16. Müvafiq qurumun sorğuları şifahi (telefon vasitəsilə) cavablandırması təcrübəsinin mövcudluğu
3.17. Yazılı sorğunun cavablandırılması qanunvericilikdə nəzərdə tutulan müddətdə icra olunması səviyyəsi
3.18. İnformasiya əldə etmək üçün edilən müraciətlərin sayı (aylıq, illik)
3.19. Cavablandırılmış müraciətlərin sayı
3.20. Cavablandırılmış (tam və ya natamam) müraciətlərin ümumi müraciətlərdə payı
3.21. Tam cavablandırılmış müraciətlərin ümumi cavablandırılmış müraciətlərdə payı
3.22. Bələdiyyə qurumu tərəfindən təqdim edilən cavabların verilmiş suala uyğunluğu
3.23. Bələdiyyə qurumu tərəfindən təqdim edilən cavabların anlaşıqlılıq səviyyəsi
3.24. Bələdiyyə qurumunun ictimai informasiyanın açıqlığının təmin edilməsi sahəsində ayrıca strategiyası və tənzimləyici sənədinin mövcudluğu
3.25. İnformasiyaya məsul şəxsin vətədaşlarla əməkdaşlıq marağının səviyyəsi
3.26. Bələdiyyə qurumunun rəsmi çap və ya elektron mətbu məhsullarının mövcudluğu
3.27. Rəsmi internet səhifəsində axtarış sisteminin işlək vəziyyətdə olması
3.28. Bələdiyyə qurumunun vətəndaş cəmiyyəti ilə əməkdaşlıq marağının mövcudluğu
3.29. Vətəndaş cəmiyyəti təmsilçilərinin qurumun iclaslarında iştirak səviyyəsi
3.30. Bələdiyyə qurumu tərəfindən il ərzində keçirilən ictimai dinləmələrin sayı

## 4. İctimai xidmətlər göstərən dövlət şirkətlərinin yerli strukturları üzrə:

***Qaz təsərrüfatı***

4.1. Rayon ərazisində il ərzində istehlak olunan təbii qazın (əhali və qeyri-əhali) həcmi və istehlakının strukturu barədə məlumatların açıqlığı
4.2. Rayon ərazisində il ərzində istehlak, ötürülməsi zamanı təbii qazın (əhali və qeyri-əhali) itkilərinin həcmi və strukturu barədə məlumatların açıqlığı
4.3. Rayon ərazisində ev təsərrüfatlarının qazlaşdırma səviyyəsi
4.4. Rayon ərazisində il ərzində istehlak olunmuş təbii qaza (əhali və qeyri-əhali) görə ödəniş həcmi və strukturu barədə məlumatların açıqlığı
4.5. Rayon Qaz təsərrüfatında dövlət büdcəsində ayrılan vəsaitin həcmi barədə məlumatın strukturunun açıqlığı
4.6. Qurumun ayrıca internet səhifəsinin mövcudluğu
4.7. Rəsmi internet səhifəsində dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların mövcudluğu
4.8. Rəsmi internet səhifəsində yerləşdirilən hesabatın dövriliyi (aylıq, rüblük, yarımillik, illik)
4.9. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların açıqlanma davamlılığı
4.10. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların yüklənə bilmə funksiyasının mövcudluğu
4.11. Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların maşınoxunma funksiyasının olması
4.12. İctimai informasiyanı əldə etmək üçün müraciət olunacaq müvafiq strukturun (şöbə, idarə və s) mövcudluğu
4.13. İctimai informasiyanı əldə etmək üçün müvafiq strukturla (şöbə, idarə və s) əlaqə saxlamaq imkanlarının mövcudluğu
4.14. İctimai informasiyanın əldə edilməsi kanallarının sayı
4.15. Rəsmi internet səhifəsində elektron qaydada (email, online) müraciət etmək funksiyasının mövcudluğu
4.16. Müvafiq qurumun sorğuları şifahi (telefon vasitəsilə) cavablandırması təcrübəsinin mövcudluğu
4.17. Yazılı sorğunun cavablandırılması qanunvericilikdə nəzərdə tutulan müddətdə icra olunması səviyyəsi
4.18. İnformasiya əldə etmək üçün edilən müraciətlərin sayı (aylıq, illik)
4.19. Cavablandırılmış müraciətlərin sayı
4.20. Tam cavablandırılmış müraciətlərin ümumi cavablandırılmış müraciətlərdə payı
4.21. İnformasiya sahibi tərəfindən təqdim edilən cavabların verilmiş suala uyğunluğu
4.22. İnformasiya sahibi tərəfindən təqdim edilən cavabların anlaşıqlılıq səviyyəsi
4.23. Qurumun ictimai informasiyanın açıqlığının təmin edilməsi sahəsində ayrıca strategiyası və tənzimləyici sənədinin mövcudluğu
4.24. İnformasiyaya məsul şəxsin vətədaşlarla əməkdaşlıq marağının səviyyəsi
4.25. Qurumun rəsmi çap və ya elektron mətbu məhsullarının mövcudluğu
4.26. Rəsmi internet səhifəsində axtarış sisteminin işlək vəziyyətdə olması
4.27. Qurumun vətəndaş cəmiyyəti ilə əməkdaşlıq marağının mövcudluğu

## 3. Regionlarda ictimai informasiyaya əlçatanlıq, dövlət qurumlarının şəffaflıq və hesabatlılıq sahəsində durumunu qiymətləndirmək üçün indikatorların tətbiqi üçün

## M O D U L

Vətəndaşların zəruri ictimai məlumatara sərbəst çıxışı olmadıqda, onlar öz hüquqlarından effektiv istifadə edə bilmir, həmçinin məlumatsız mühitdə ictimai xidmətlərin keyfiyyəti və səmərəliliyi aşağı düşür. Odur ki, yerli idarəetmə qurumlarının və ictimai xidmət təşkilatlarının informasiya açıqlığı və fəaliyyətlərində şəffaflıq səviyyəsi yerli vətəndaş cəmiyyətinin müntəzəm monitorinqi yerli vətəndaş cəmiyyətinin istifadə edə biləcəyi ən mühüm mexanizmdir.

### Istifadə olunan indikatorların təsnifatı

Yerli səviyyədə idarəetmə və ictimai xidmət təşkilatlarının fəaliyyətində informasiya açıqlığı və şəffaflıqla bağlı ictimai monitorinq məqsədilə 8 istiqamət üzrə indikatorlardan istifadə təklif edilir. Həmin istiqamətlərə daxildir:

1. **İctimai vəsaitlərin və vergilərin formalaşması bağlı məlumatların açıqlığı**. Bu istiqamətə rayon və şəhərlərdə dövlət və bələdiyyə büdcələrinə vergilərdən, ictimai əmlakın istifadəsindən, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarından daxilolmalarla bağlı informasiya açıqlığını və müvafiq təşkilatların hesabatlılığını qiymətləndirmək üçün indikatorlar daxildir.
2. **İctimai vəsaitlərin istifadəsi ilə bağlı informasiyaların açıqlığı**. Bu istiqamətə dövlət və bələdiyyə büdcələri vasitəsilə rayon və şəhərlərin ehtiyacları üçün bütün istiqamətlər üzrə xərcləmələr və onlaırn funksional strukturuna dair informasiya açıqlığını və müvafiq təşkilatların hesabatlılığını qiymətləndirmək üçün indikatorlar daxildir.
3. **İctimai əmlakın istifadəsi ilə bağlı məlumatların açıqlığı**. Bu istiqamətə dövlət və bələdiyyəə mükiyyətində olan hər növ daşınar və daşınmaz əmlakın mövcudluğuna və istifadəsinə dair informasiya açıqlığını və müvafiq təşkilatların hesabatlılığını qiymətləndirmək üçün indikatorlar daxildir.
4. **Sosial xidmətlərlə bağlı məlumatların açıqlığı**. Bu istiqamətə bölgələrdə yaşayan insanların aldığı müxtəlif sosial xidmətlərin (məs., əhalinin sağlamlığı, məktəbəqədər və orta təhsil, meliorasiya və kənd təsərrüfatı, sosial müdafiə sistemi) həcmi, çeşidi, xidmət alanların sayı ilə bağlı informasiya açıqlığını və müvafiq təşkilatların hesabatlılığını qiymətləndirmək üçün indikatorlar daxildir.
5. **İctimai informasiyaların cavablandırılma vəziyyətilə bağlı mə məlumatların açıqlığı.** İctimai informasiya əldə etmək hüququnun qanunvercilikdə təsbit edilməsi çox önəmlidir. Lakin ictimai sorğulara və vətəndaşların məlumat əldə etməklə bağlı qanunvericilikdə nəzərdə tutulan istənilən formada müraciətlərinə cavab verilməsi eyni dərəcədə mühümdür. Bu istiqamət üzrə indikatorlar ictimai informasiyaların cavablandırılması sahəsində informasiya sahiblərinin öz öhdəliklərini nə nə dərəcədə yerinə yetirdiyni qiymətləndirməklə bağlıdır. İnformasiya əldə etmək vətəndaş üçün hüquq, informasiya sahibi üçün öhdəlikdir.
6. **Yerli qurumların informasiya açıqlığını təmin edən imkanların mövcudluğunu və hesabatlılıq səviyyəsini əks etdirən indikatorlar.** Bu istiqamətə yerli idarəetmə və ictimai

xidmət təşkilatlarının hesabatlılıq səviyyəsini, hesabatların açıqlanması üçün elektron və rəqmsal imkanlardan yararlanmaq imkanlarını qiymətləndirməklə bağlı indikatorlar daxildir.

7. **Bölgələrin iqtisadi imkanları ilə bağlı məlumatların açıqlıq səviyyəsi**. Bu istiqamətə bölgələrin iqtisadi inkşişafını, iqtisadi proses və tədbirləri xarakterizə edən göstəricilərin açıqlığını və əlçatanlığını qiymətləndirməklı bağlı indikatorlar daxildir.

8. **Yerli qurumların fəaliyyətinin inzibati təşkililə bağlı məlumatların açıqlıq səviyyəsi**. Bu istiqamətə yerli idarəetmə qurumlarının və ictimai xidmət təşkilatlarının, onların vəzifəli şəxslərin fəaliyyətini təmin edən ən vacib reqlamentlərlə bağlı məlumatıarın açıqlıq səviyyəsini qiymətləndirən indikatorlar daxildir.

**Bölmələr üzrə indikatorların izahı və zəruri göstəricilərin əldə olunması üçün məlumat mənbələri, məlumatların əldə edilməsi üçün hüquqi imkanlar**

Təqdim olunan modul yerli ictimai qurumların fəaliyyətində açıqlığı və şəffaflığı qiymətləndirmək üçün istifadə olunacaq indikatorların tətbiqi ilə bağlı izahat sənədidir. İzahatda hər bir indikator üzrə statistik göstəricilərin və ictimai informasiyaların hansı mənbədən götürülə biləcəyi, hesablanma qaydası, təqvimə uyğun olaraq məlumatların nə zaman əldə oluna biləcəyi əks olunub.

| № | İndikatorun adı | Məlumatın əhəmiyyəti | Məlumatın əldə edilməsi mümkün mənbələr | Məlumatın əldə edilməsi üçün mümkün tarix və hesablanma qaydası |
|---|---|---|---|---|
| 1. | **İctimai vəsaitlərin istifadəsi ilə bağlı informasiyaların açıqlığı** | | | |
| 1.1 | Dövlət idarəetmə orqanlarının saxlanması xərcləri barədə məlumatlar | Vətəndaşların ictimai vəsaitlər hesabına onları idarə edənlərin saxlanması barədə məlumatlılığını təmin edir | Rayon (şəhər) icra hakimiyyətləri, yerli maliyyə orqanları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.2 | Dövlət idarəetmə orqanlarının saxlanması xərclərinin strukturu barədə məlumatlar | İdarəetmə orqanlarına ayrılan xərclərin əmək haqqı və inzibati xərcləri arasında necə bölünməsi barədə məlumatlılığı təmin edir | Rayon (şəhər) icra hakimiyyətləri, yerli maliyyə orqanları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.3 | Yerli hakimiyyətin abadlaşdırma üçün xərclədiyi vəsaitlərin ümumi məbləği və xərclərin strukturu barədə məlumatlar | İcmaların yaşadıqları əraziinn təmiz saxlanması üçün büdcı vəsaitlərinin həcmilə bağlı məlumatlılığını təmin edir | Rayon (şəhər) icra hakimiyyətləri, yerli maliyyə orqanları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.4 | Dövlət idarəetmə orqanlarının həyata keçirdiyi satınalmalar barədə məlumatlar (elanlar və nəticələr) | Yerli səviyyədə satınalmaların şəffaflığı və onlar üzərində ictimai nəzarəti təmin edir | Satınlamanı həyata keçirən dövlət təşkilatı, http://etender.gov.az/ saytı | Müntəzəm olaraq |
| 1.5 | Rayon (şəhər) üzrə səhiyyə xərclərinin ümumi məbləği | Yerli səviyyədə əhalinin sağlamlığı üçün büdcədən ayrılan vəsaitlərin həcmi barədə vətəndaşların məlumatlı olması, səahiyyə sahəsində hüquqlarını tələb etmək üçün zəruri informasiyalara sahiblik | Rayon səhiyyə şöbəsi, maliyyə orqanları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.6 | Rayon (şəhər) dövlət səhiyyə sistemi üzrə büdcədənkənar xərclərin məbləği | Dövlət səhiyyə təşkilatlarının büdcədənkənar gəlirləri hesabına xərcləmələri üzərində ictimai nəzarətin təmin edilməsi | Rayon səhiyyə şöbəsi, maliyyə orqanları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |

| | | | | |
|---|---|---|---|---|
| 1.7 | Rayon (şəhər) ərazisində dövlət proqramları çərçivəsində ayrılan vəsaitlərin məbləği və xərclərin strukturu | Dövlət proqramları çərçivəsində rayonlara (şəhərlərə) ayrılan xərclər üzərində ictimai nəzarət imkanının təmin edilməsi | Rayon (şəhər) icra hakimiyyətləri, yerli maliyyə orqanları, proqramın icrasına məsul qurumlar | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.8 | Rayon (şəhər) üzrə təhsil xərclərinin məktəbəqədər və digər təhsil obyektləri üzrə həcmi və strukturu | Məktəbəqədər və orta təhsil üzrə xərclərin açıqlığının və həmin xərclər üzərində ictimai nəzarətin təmin edilməsi | Rayon (şəhər) icra hakimiyyətləri, regional təhsil şöbələri | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.9 | Rayon (şəhər) üzrə kənd təsərrüfatına çəkilən xərclərin həcmi və strukturu | Bölgədə aqrar sektora ayrılan xərclərin istifadəsi üzərində ictimai nəzarətin təmin edilməsi | Rayon aqrar inkişaf mərkəzləri, maliyyə-xəzindarlıq qurumları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.10 | Rayon (şəhər) üzrə kənd təsərrüfatı sektoruna verilən subsidiyaların ümumi və növlər üzrə həcmi | Subsidiyaların şəffaflığı və ünvanlılığı üzərində ictimai nəzarətin təmin edilməsi | Rayon aqrar inkişaf mərkəzləri, maliyyə-xəzindarlıq qurumları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.11 | Rayon (şəhər) ərzisində melorasiyaya ayrılan vəsaitin həcmi | Ərazinin suvarma suyu infrastrukturunun yenidən qurulmasına ayrılan xərclərlə bağlı maraq qruplarının məlumatlığının, xərcləmələrin ünvanlılığının və şəffaflığının təmin edilməsi | Rayon melirorasiya qurumları, maliyyə orqanı | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.12 | Rayon (şəhər) üzrə sosial müdafiə sahəsində çəkilən xərclərin həcmi və strukturu | Ərazi üzrə sosial müdafiə xərclərinin ünvanlı və şəffaf xərclənməsi üzərində ictimai nəzarətin təmin edilməsi | Rayon sosial müdafiə mərkəzləri, maliyyə-xəzindarlıq qurumları | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 1.13 | Rayon (şəhər) bələdiyyəsinin illik xərclərinin strukturu | Bələdiyyə xərcləmələrinin effektiv və şəffaf xərclənməsi üzərində ictimai nəzarətin təmin edilməsi | Müvafiq bələdiyyə orqanı | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 2. | **İctimai vəsaitlərin və vergilərin formalaşması bağlı məlumatların açıqlığı** | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2.1 | Rayon (şəhər) ərazisində toplanan vergilərin ümumi məbləği və tədiyyə nəvləri üzrə həcmi | Ərazinin vergi potensialının öyrənilməsi və vergi yığımında şəffaflıq və ictimai nəzərətin təmin edilməsi | Ərazi vergi orqanı | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 2.2 | Rayon (şəhər) dövlət səhiyyə sistemi üzrə büdcədənkənar gəlirlərin məbləği | Dövlət səhiyyə qurumlarının büdcədəkənar gəlirlərinin şəffaf prinsiplər əsasında formalaşması üzərində ictimai nəzarətin təmin edilməsi | Səhiyyə orqanı, xəzinədarlıq qurumu | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 2.3 | Rayon (şəhər) bələdiyyəsinin illik gəlirlərinin strukturu | Bələdiyyə gəlirlərinin şəffaf və qanunvericiliyə uyğun qaydada toplanması üzərində ictimai nəzarətin təmin edilməsi | Müvafiq bələdiyyə orqanı | 2018-ci il üzrə hesabat, 2020-ci il üzrə proqnozlaşdırılan məlumat |
| 3. | **İctimai əmlakın istifadəsi ilə bağlı məlumatların açıqlığı** | | | |
| 3.1 | Rayon (şəhər) İcra Hakimiyyətinin sərəncamında olan yaşayış və qeyri-yaşayış sahələri və torpaq fondunun həcmi və tərkibi barədə məlumatlar | Dövlət əmlakının həcmilə bağlı ictimai məlumatlılığın təmin edilməsi | Rayon (şəhər) İH | 2018-ci il üzrə |
| 3.2 | Rayon (şəhər) bələdiyyəsi tərəfindən icrəyə verilən  və satılan torpaqlar və əmlakların həcmi və əldə edilən vəsaitlər barədə məlumatlar | Bələdiyyə əmlakından istifadəyə dair ictimai məlumatlılığın təmin edilməsi | Müvafiq bələdiyyə | 2018-ci il üzrə |
| 3.3 | Rayon (şəhər) ərzisində dövlət mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqların ümumi sahəsi, onların icarəyə verilmiş hissəsi və icarəçilərin sayı | İctimai fonda daxil olan kənd təsərrüfatı təyinatlı torpaqların istifadə vəziyyətinə və onların keyfiyyətinə dair ictimai məlumatlılığın təmin edilməsi | Rayon (şəhər) İH | 2018-ci il üzrə |
| 3.4 | Rayon (şəhər) üzrə kənd təsərrüfatı torpaqlarının əkin növləri üzrə strukturu | Kənd təsərrüfatı torpaqlarının diversifikasiua vəziyyətini əks etdirir | Rayon (şəhər) statistika qurumu | 2018-ci il üzrə |
| 4. | **Sosial xidmətlərlə bağlı məlumatların açıqlığı** | | | |

| | | | | |
|---|---|---|---|---|
| 4.1 | Rayon (şəhər) üzrə müalicəsi dövlət proqramlarında nəzərdə tutulan xəstəliklər üzrə xəstələrin, o cümlədən onlardan müalicəyə cəlb olunanların sayı haqqında məlumatların açıqlığı | Müxtəlif xəstəliklər üzrə müalicəyə ehtiyac olan vətəndaşlar üçün dövlət proqramları ilə əhatə səviyyəsi və həmin proqramlar çərçivəsində dövlət xidmətlərinin vətəndaşlar üçün əlçatanlıq səviyyəsi | Rayon (şəhər) səhiyyə qurumu | 2018-ci il üzrə |
| 4.2 | Rayon (şəhər) üzrə kənd təsərrüfatı sektorunda subsidiya alanların siyahısı | Fermerlərin dövlət aqrar subsidiyalarından bəhrələnmə səviyyəsi və imkanı | Rayon (şəhər) səhiyyə aqrar inkişaf mərkəzləri | 2018-ci il üzrə |
| 4.3 | Rayon (şəhər) üzrə sosial müdafiə sistemi ilə əhatə olunan əhalinin sayı və tərkibi | Əhalinin sosial müdafiə sistemi ilə əhatə səviyyəsini əks etdirir | Rayon (şəhər) sosial müdafiə mərkəzləri | 2018-ci il üzrə |
| 4.4 | Rayon (şəhər) ərazisində dövlət və bələdiyyə vergilərinin ödəyicilərinin sayı | Bələdiyyələrin vergi ödəyicilərinin sayı və tərkibi ilə bağlı nə dərəcədə şəffaf statistikaya malik olma səviyyəsi | Ərazi vergi xidməti və müvafiq bələdiyyə orqanı | 2018-ci il üzrə |
| 5. | **İctimai informasiyaların cavablandırılma vəziyyətilə bağlı mə məlumatların açıqlığı** | | | |
| 5.1 | İdarəetmə orqalarına və ictimai xidmət strukturlarına informasiya əldə etmək üçün edilən müraciətlərin sayı (aylıq, illik), ədəd | Vətəndaşların ictimai informaiya əldə etmək üçün fəallıq səviyyəsini göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | 2018-ci il üzrə |
| 5.2 | İnformasiya sorğularına əsasən cavablandırılmış müraciətlərin sayı | İdarəetmə orqanlarının əhalinin informasiya əldə etmək hüququna nə dərəcədə məsuliyyətli yanaşma səviyyəsini göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | 2018-ci il üzrə |
| 5.3 | Sorğulara əsasən tam cavablandırılmış müraciətlərin ümumi cavablandırılmış müraciətlərdə payı | İnformasiya sorğularının cavablandırma səviyyəsini ölçür | Monitorinqə cəlb edilən müvafiq qurumlar | 2018-ci il üzrə |
| 5.4 | İctimai informasiyanı əldə etmək üçün müraciət olunacaq müvafiq strukturun (şöbə, idarə və s) mövcudluğu | Əhalinin ictimai informasiya əldə etməsinə rəsmi məsuliyyət daşıyan strukturun və ya səlahiyyətli şəxsin mövcud olub-olmadığını aydınlaşdırır | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |

| | | | | |
|---|---|---|---|---|
| 5.5 | İctimai informasiyanı əldə etmək üçün müvafiq strukturla (şöbə, idarə və s) əlaqə saxlamaq imkanlarının mövcudluğu | Səlahiyyətli şəxslə hər hansı formada əlaqə saxlamaq üçün imkanların olub-olmadığını müəyyənləşdirir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 5.6 | İctimai informasiyanın əldə edilməsi kanallarının sayı | İctimai informasiya əldə etmək üçün kanalların nə dərəcədə diversifikasiya edildiyini göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6. | **Yerli qurumların informasiya açıqlığını təmin edən vasitə və imkanların mövcudluğunu əks etdirən göstəricilər** | | | |
| 6.1 | Qurumun ayrıca internet səhifəsinin mövcudluğu | Müvafiq qurumların rəqəmsal texnologiyalardan istifadə potensialını və ictimaiyyətlə onlayn əlaqə imkanlarının mövcudluğunu göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.2 | Rəsmi internet səhifəsində dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların mövcudluğu | Rəsmi hesabatların onlayn əldə edilməsi imkanlarının mövcudluğunu göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.3 | Rəsmi internet səhifəsində yerləşdirilən hesabatın dövriliyi (aylıq, rüblük, yarımillik, illik) | Onlayn əldə edilməsi mümkün olan hesabatların müntəzəm yerləşdirilmə təcrübəsinin olub-olmadığını göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.4 | Rəsmi internet səhifəsində axtarış sisteminin işlək vəziyyətdə olması | Qurumların internetdən ictimai istifadə imkanının effektivliyini artırmağa nə dərəcədə maraqlı olmasını qiymətləndirməyə imkan verir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.5 | Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların maşınoxunma funksiyasının olması | Qurumların öz onlayn məlumatların geniş və daha asan emalına maraqlı olub-olmadığını qiymətləndirməyə imkan verir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.6 | Dövri (aylıq, rüblük, yarımillik, illik) hesabatların yüklənə bilmə funksiyasının mövcudluğu | | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.7 | Rəsmi internet səhifəsində elektron qaydada (email, online) müraciət etmək funksiyasının mövcudluğu | Əhalinin qurumlara onlayn müraciət imkanın olub-olmadığını göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |

| | | | | |
|---|---|---|---|---|
| 6.8 | Müvafiq qurumun sorğuları şifahi (telefon vasitəsilə) cavablandırması təcrübəsinin mövcudluğu | Qurumların insanların sorğularına operativ, bürokratik prosedurları ağırlaşdırmadan cavablandırmağa maraqlı olub-olmadığını göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.9 | Qurumun rəsmi çap və ya elektron mətbu məhsullarının mövcudluğu | Qurumların cəmiyyətin informasiya əldə etmk imkanını genişləndirmək üçün elektron və çap məhsullarından istifadə edib-etməməsilə bağlı təcrübəsini qiymətlənidirir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 6.10 | Qurumun ictimai informasiyanın açıqlığının təmin edilməsi sahəsində ayrıca strategiyası və tənzimləyici sənədinin mövcudluğu | Mövcud qanunvericilikdə hər qurumun informasiya açıqlığına dair tənzimləyici sənədinin olması ilə bağlı hüquqi tələbə əməl edilib-edilmədiyini, qurumların informasiya açıqlığına nə dərəcədə institusional yanaşmasının olub-olmadığını göstərir | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 7. | **Bölgələrin iqtisadi imkanları ilə bağlı məlumatların açıqlıq səviyyəsi** | | | |
| 7.1 | Rayonun (şəhərin) inkişaf planlarının (strategiyaların), o cümlədən baş planların mövcudluğu və açıqlıq səviyyəsi | Bölgə inkişafı üçün peşəkar idarəetmə aləti kimi nə uzunmüddətli strateji planlaşdırma bacarıqlarının mövcud olub-olmadığını göstərir | Rayon (şəhər) İH | Monitorinq aparılan dövrə |
| 7.2 | Rayon (şəhər) üzrə sənaye məhsullarının istehsal strukturu | Ərazinin sənaye potensialının səviyyəsini və sənaye məhsullarının diversifikasiya səviyyəsini göstərir | Rayon (şəhər) statistika qurumu | 2018-ci il üzrə |
| 7.3 | Rayon (şəhər) üzrə yaranan əlavə dəyərin sahələr üzrə srtukturu | Ərzinin iqtisadi potensialının səviyyəsini və iqtisadi diverisfikasiyanın səviyyəsini göstərir | Rayon (şəhər) statistika qurumu | 2018-ci il üzrə |
| 7.4 | Rayon (şəhər) üzrə kənd təsərrüfatı istehsalının növlər üzrə həcmi | Kənd təsərrüfatı üzrə ixtisaslaşma və aqrar sektorun diversifikasiya səviyyəsini göstərir | Rayon (şəhər) statistika qurumu | 2018-ci il üzrə |
| 7.5 | Rayon üzrə yoxsulluğun səviyyəsi | Ərazidə əhalinin həyat səviyyəsini və yoxsulluq riskinin miqyasını göstərir | Rayon (şəhər) statistika qurumu | 2018-ci il üzrə |

| 8. | Yerli qurumların fəaliyyətinin inzibati təşkililə bağlı məlumatların açıqlıq səviyyəsi | | | |
|---|---|---|---|---|
| 8.1 | Rayon (şəhər) idarəetmə və ictimai xidmət strukturlarının vəzifəli şəxslərinin siyahısı və əlaqə məlumatlarının mövcudluğu | Vəzifəli şəxslərlə və səlahiyyətli qurumlarla operativ və müntəzəm ictimai əlaqə imkanının təmin edilməsi | Monitorinqə cəlb edilən müvafiq qurumlar | Monitorinq aparılan dövrə |
| 8.2 | Bələdiyyə qurumu tərəfindən il ərzində keçirilən ictimai dinləmələrin sayı | Bələdiyyə tərəfindən problemlərin ictimai müzakirəsi üçün platformanın yaradılması təşəbbüsünün dəstəklənməsi | Müvafiq bələdiyyə | 2019-cu il üzrə |
| 8.3 | Rayon (şəhər) bələdiyyəsi ərazisində bələdiyyə qurumu tərəfindən həyata keçirilən proqramların sayı | Bələdiyyə qurumlarının peşəkar idarəetmə aləti kimi proqramlaşdırma bacarığının mövcudluğu | Müvafiq bələdiyyə | 2019-cu il üzrə |
| 8.4 | Vətəndaş cəmiyyəti təmsilçilərinin qurumun iclaslarında iştirak səviyyəsi | Yerli ictimai fəalların yerli idarəetmə orqanlarının fəaiyyətində iştirakı potensialının və bu cür iştурak üçün institusional-hüquqi imlanların mövcudluğu | Müvafiq bələdiyyə | 2019-cu il üzrə |